“Xudafərin harayından qalan mən!..”

# XUDAFƏRİN

Qəzet 1932-ci ildən çıxır № 7-8 (6827-6828) 25 iyun 2020-ci il Cəbrayıl RİH-nin orqanı



# 15 İyun Milli Qurtuluş Günüdür

# 26 İyun - Azərbaycanın Silahlı Qüvvələr Günüdür




## İlham Əliyev Paşinyanı növbəti dəfə yerində oturtdu:

### "İrqçilik haqqında danışmağı məsləhət görməzdim, çünki erməni terrorçuları dünyaca məşhurdurlar"

İyunun 18-də Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında Sammiti keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında keçirilən Sammitində iştirak edib.

Sammiti giriş sözü ilə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel açdı.

Sonra Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen çıxış etdi.

Daha sonra Avropa İttifaqına üzv dövlətlərin və Şərq Tərəfdaşlığı ölkələrinin dövlət və hökumət başçıları çıxış etdilər.

Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel sözü Azərbaycan Prezidenti İlham Əliyevə verdi.

*-Azərbaycan Şərq Tərəfdaşlığının fəal tərəfdaş ölkəsidir. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindəndir. Bizim Avropa İttifaqının bir çox üzv ölkəsi ilə sıx əməkdaşlığımız mövcuddur. Azərbaycan Avropa İttifaqının 9 üzvü ilə strateji tərəfdaşlıq haqqında sənəd imzalayıb. Biz Avropa İttifaqı ilə yeni tərəfdaşlıq sazişi ilə bağlı danışıqların yekun mərhələsindəyik. Mətnin 90 faizi artıq razılaşdırılıb. İki il bundan əvvəl Brüsseldə Azərbaycan və Avropa İttifaqı arasında ”Tərəfdaşlıq Prioritetləri” sənədi paraflanıb ki, burada hər iki tərəfin müstəqillik, suverenlik, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə sadiqliyi vurğulanır. Ermənistan və Azərbaycan arasında olan münaqişə eyni prinsiplər əsasında həll edilməlidir. Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin işğalını davam etdirir. Dağlıq Qarabağ və Azərbaycanın daha 7 rayonu 30 ilə yaxındır ki, Ermənistanın işğalı altındadır. Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilmişdir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş bütün ərazilərindən qeyd-şərtsiz və tam çıxarılmasını tələb edir. Ermənistan bu qətnamələrə, habelə ATƏT, Qoşulmama Hərəkatı, NATO, Avropa Parlamenti və digər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş müvafiq sənədlərə əməl etmək əvəzinə işğal olunmuş ərazilərdə qeyri-qanuni məskunlaşma siyasəti həyata keçirir. Danışıqların mahiyyət və formatını məhv etməyə çalışan Ermənistanın baş nazirinin dediyinin əksi olaraq, Dağlıq Qarabağ Ermənistan deyil, Dağlıq Qarabağ Azərbaycandır və bütün dünya bunu belə tanıyır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır.*

*Koronavirus pandemiyasına qarşı görülmüş tədbirlər bizə vəziyyəti nəzarətdə, itkiləri isə minimum səviyyədə saxlamağa imkan verib. Ümumdünya Səhiyyə Təşkilatı koronavirusla mübarizədə Azərbaycanı nümunəvi ölkə adlandırıb. Qoşulmama Hərəkatının 120 üzv ölkəsinin yekdil qərarı ilə 2019-cu ildə təşkilata sədr seçilən Azərbaycan bu il mayın 4-də Hərəkatın COVİD-19-a həsr edilmiş onlayn formatda Zirvə görüşünü təşkil etmişdir. Biz Avropa İttifaqı və Afrika İttifaqının həmin tədbirə qoşulmalarını yüksək qiymətləndiririk. Ali nümayəndə cənab Jozep Borelə videomüraciətinə görə təşəkkürümü bildirmək istəyirəm. Ümid edirik ki, bu, Avropa İttifaqı və Qoşulmama Hərəkatı arasında fəal əməkdaşlığın başlanğıcı olacaqdır. Biz, həmçinin BMT Baş Assambleyasının COVİD-19-a həsr edilmiş dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi iclasının keçirilməsini təklif etmişik. Azərbaycan pandemiya ilə mübarizə üçün Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə yardımı ayırmışdır. Eyni zamanda, ölkəmiz bu günə qədər 29 dövlətə humanitar yardım göstərib və bu işi davam etdirməyi planlaşdırır. Sağ olun.*

**Ermənistanın baş naziri Nikol Paşinyanın atdığı “Azərbaycanın öz ərazisində ermənilərə qarşı irqçi siyasət həyata keçirməsi” ilə bağlı replikaya tutarlı cavab verərək Paşinyanı yerində oturdan Prezident İlham Əliyev dedi:**

- Çıxışımda dediklərim beynəlxalq təşkilatların qətnamələrinə əsaslanan tarixi həqiqətdir. Birincisi, bu, hər kəsə bəlli olan bir faktdır ki, Ermənistan Azərbaycanın ərazisini işğal edib. İkincisi isə Ermənistanın baş nazirinə irqçilik haqqında danışmağı məsləhət görməzdim, çünki erməni terrorçuları dünyaca məşhurdurlar. Parisin Orli hava limanında terror hadisəsi törədən Karapetyan soyadlı şəxs sonradan Ermənistana ekstradisiya edilib və Ermənistan prezidenti tərəfindən əfv olunub. Məhz buna görə belə məsələlər ətrafında müzakirə gedəndə ona sakit oturmağı tövsiyə edərdim. Burada çıxışımı yekunlaşdırıram.

***(Prezident İlham Əliyevin çıxışından)***

# Koronavirusla mübarizə dövlət səviyyəsində

## Baş redaktordan

Koronavirus pandemiyası ilə bağlı Novruz bayramı vaxtlarında ölkəmizdə xüsusi karantin rejimi elan olunanda İran İslam Respublikasından olan alim dostum Hüseyn Məhəmməd oğlu Xoşbatiniyə zəng etdim. Hal-əhval tutdum, bizdə də pandemiya ilə bağlı xüsusi karantin tətbiq olunduğunu bildirdim. Hüseyn müəllim mənə dedi ki, sizin prezidentiniz çox vaxtında və düzgün, operativ qərar qəbul edib. Bizdə karonavirus pandemiyası kütləviliklə yayıldıqdan sonra karantin rejiminə keçildi, onda da çox gec idi, çünki artıq xəstəlik kifayət qədər geniş arealda yayılmış və xeyli sayda əhali yoluxmuş, dünyasını dəyişmişdi. Yəni bizdə bu haqda gecikmiş qərar qəbul edildi. Amma sizdə isə xəstəlik yayılmamış, ölkəni cənginə almamış ölkə başçınız karantin qaydasını tətbiq etdirdi, bu da əhalinizin xəstəliyə yoluxmasının xeyli qarşısını alacaqdır.

Mən Hüseyn müəllimlə aramızda olan telefon söhbətimizin məzmununu əbəs yerə nağıl etmirəm. Dağın ucalığını dağı uzaqdan seyr eləyənlər daha yaxşı görə bilirlər. Hüseyn Xoşbatini qonşu ölkənin vətəndaşı kimi, həm də ingilis, fars, türk, Azərbaycan dillərini bilən bir poliqlot alim kimi bizim ölkəmizə-respublika prezidentinin vaxtında pandemiya təhlükəsi əleyhinə atdığı prinsipial və humanist addıma obyektiv və tərəfkeşlik göstərmədən dəyər verirdi. Bəli, Hüseyn müəllim nə Azərbaycan vətəndaşıdır, nə də hansısa bir vəzifə, mənsəb dərəcəsi güdən hansısa bir partiya nümayəndəsidir. Hüseyn müəllim dağın əzəmətini kənardan tamaşa eləyib görən və bu haqda mühakimə yürüdə bilən bəsirət gözü açıq olan bir əcnəbi ziyalıdır.

İlham Əliyevin 17 il əvvəl prezidentliyə gəldiyi ərəfələrdə öz platformasında irəli sürdüyü ”Mən hər bir azərbaycanlının prezidentiyəm” sözlərini bu məqamda xatırlamaq lazımdır. Bu sözlərin nə qədər böyük səmimiyyətlə və qayğıkeşliklə deyildiyinin mahiyyəti bu gün özünü aydınlığı ilə göstərir. Bəşəriyyətə qənim kəsilən koronavirus pandemiyası ölkəmizə ayaq açar-açmaz möhtərəm prezidentimiz ”hər bir azərbaycanlının prezidenti” kimi öz böyüklük qayğıkeşliyini nümayiş etdirdi, dəfələrlə bəyan etdiyi kimi, bir daha insan kapitalını hər bir kapitaldan üstün tutduğunu əməli şəkildə göstərdi. Ölkə əhalisini koronavirus xəstəliyindən qorumaq, öz xalqının sağlamlığı naminə bir sıra operativ qərarlar qəbul etməklə mühüm addımlar atdı. Tibbi maskalar istehsal edən zavodların dərhal inşası və fəaliyyəti üçün real addımlar atdı. Xüsusi və sərtləşdirilmiş karantin rejimləri, imkansız əhaliyə maddi yardımların ayrılması, bu məqsədlə xüsusi xəstəxanaların tikilməsi, həkimlərin səfərbərliyə alınması və s. və i.a

Bu qəbildən olan tədbirlərin, qərarların sayını çoxaltmaq da olar. Ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ilə bu sahədə əl-ələ verib ölkə əhalisinə qarşı bu cür qayğıkeşliklər göstərməsi bir daha İlham Əliyev cənablarının bir prezident kimi hər bir ölkə vətəndaşının sağlamlığının qeydinə qalmasının əyani sübutudur.

”Biz birlikdə güclüyük!” devizi ilə xalqa səslənən prezidentimiz hər kəsi birliyə çağırdı, özümüzü qəfil gələn bu qada-bəladan xilas etməyə çağırdı. ”Hər bir azərbaycanlının prezidenti” kimi xaricdəki soydaşlarımıza da əl yetirdi. Ölkəmizə gətizdirib, xüsusi rejimli xəstəxanalara yerləşdirdi və onların da qayğısına qaldı.

Bu məqamda ürəyimdən keçən bir fikri də dilimə gətirmək istəyirəm. Kaş bütün ölkələrin başçıları öz vətəndaşlarına və insanlara qarşı bizim prezidentimiz kimi qayğıkeş olaydı. Bəlkə də, belə olsaydı, dünya ölkələrində də bu virus bu qədər dəhşətli tüğyan eləməz, bu qədər çox can almazdı. Axı prezident olmaq həm də ölkənin ağsaqqalı olmaq anlamına gəlir. Ağsaqqal isə həmçinin digərlərinə qarşı canıyananlıqla qayğıkeşlik göstərmək missiyası daşımaq deməkdir. Ümummilli liderimiz Heydər Əliyev məhz bu cür qayğıkeşlik örnəyi olduğuna görə hamı tərəfindən Heydər baba kimi tanındı, əzizləndi və sevildi. Çünki insanlar həmişə öz babasından mehribanlıq, mülayimlik, nəvaziş, qayğıkeşlik görüblər, buna görə də babanı həmişə nəslin, tayfanın baş biləni, ağsaqqalı hesab ediblər. ”Dövlətdə dəvə, övladda nəvə” məsəlimizə uyğun olaraq baba nəvəsinə özünün əziz-girami xələfi kimi, övladı kimi sevgi bəsləyib, onu özünün gələcəyi kimi görüb.

Bəli, Ümummilli liderimizin Heydər baba kimi öz xalqına göstərdiyi qayğıkeşlik nümunəsi bu gün onun yolunun layiqli davamçısı olan hörmətli prezidentimizin əməllərində əyani şəkildə yaşayır. Ata yolunun ləyaqətli davamçısı olan övlad kimi, Ulu Öndərdən gələn böyük bir yolun, saf və sağlam bir əqidənin mənəvi varisi kimi bu gün xalqımız ölkəmizin prezidentinin göstərdiyi böyük qayğıkeşliyin şahididir. ”Hər bir azərbaycanlının prezidenti” hər bir kəsin sağlamlığı keşiyində bu gün özünün bütün güc və imkanlarını ortaya qoyub. Bəli, bizim prezidentimiz bizim üçün çalışır, koronavirus adlı dəhşətli pandemiyadan mümkün qədər az itki ilə ötüşüb keçməyimizi istəyir. Gəlin biz də ”Biz birlikdə güclüyük!” deyib prezidentimizlə həmrəy olaq, bu xəstəliyin illacı (əlacı) tapılana qədər özümüzü qorumağı, sağlam qalmağı bacaraq. Prezidentimizin bizə göstərdiyi bu qayğıkeşliyə biz də diqqət göstərib, bu qayğıdan bəhrələnək. Elə biz də prezidentimizə bu yolla-bu sayğı ilə öz tərəfimizdən qarşılıqlı qayğı göstərək!

# 15 İYUN - MİLLİ QURTULUŞ GÜNÜ



**Azərbaycan xalqının taleyində böyük əhəmiyyət daşıyan elə günlər var ki, həmin günlərdə onun gələcək həyatını müəyyən edən mühüm başlanğıcların əsası qoyulub. Belə günlərdən ən önəmlisi tariximizə qızıl hərflərlə yazılmış 15 İyun - Milli Qurtuluş Günüdür. Milli Qurtuluş Günü Azərbaycan xalqı üçün sadəcə təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik bir gündür. İyunun 15-i xalqımız üçün əsl qurtuluş tarixidir. Bu tarixi yaradan isə Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində, inkişafında müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqına arxa, dayaq olan bir insan - Heydər Əliyevdir.**

XX əsrin sonlarında yenidən müstəqillik qazanmaq kimi tarixi fürsəti əldə edən Azərbaycan qısa vaxtdan sonra onun itirilməsi təhlükəsi ilə üzləşdi. Ölkədə hakimiyyət böhranı 1993-cü ilin iyununda kulminasiya həddinə çatmış, xaos və anarxiya respublikanı bürümüşdü. Vətəndaş müharibəsi dərəcəsinə yüksəlmiş qarşıdurma nəinki dövlət müstəqilliyimizi, hətta milli varlığımızı belə birbaşa hədəfə aldı. Digər tərəfdən Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən davamlı işğalı, getdikcə gərginləşən siyasi vəziyyət, əhalinin gündən-günə ağırlaşan sosial durumu ölkəni bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir liderə ehtiyac olduğunu şərtləndirirdi. Belə bir çətin şəraitdə 1993-cü il iyunun 9-da ulu öndər Heydər Əliyev xalqın çağırışına səs verərək Bakıya qayıtdı və ölkəmizi bəlalardan, müsibətlərdən xilas etdi. Həmin gün, sözün həqiqi mənasında, ölkəmizin taleyində dönüş anı oldu, böyük qurtuluşa doğru mühüm addım atıldı. Xalqımızı nicata aparan yol bilavasitə həmin gündən başlandı.

İyunun 15-də Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri seçildi. Bununla da ölkədə uzun illər davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu. Respublikada tüğyan edən ictimai-siyasi böhran aradan qaldırıldı və inkişafın təməli qoyuldu. Həmin il Azərbaycan gələcəyə inamla baxan qüdrətli bir dövlətə çevrildi. 1993-cü il oktyabrın 3-də Ümummilli Lider ölkə Prezidenti seçildi.

Beləliklə, bu mühüm tarixi gün xalqımızın yaddaşına Milli Qurtuluş Günü kimi həkk oldu və 1997-ci ildən etibarən parlamentin qərarı ilə qeyd edilir.

Bu gün qazanılan bütün nailiyyətlərin əsasında Ümummilli Lider tərəfindən müəyyənləşdirilən siyasi kurs və Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır. Bu günün fövqündən baxanda Azərbaycanın gələcəyi işıqlı və firavan görünür. Çünki müstəqil Azərbaycanın idarəçilik sükanı Ulu Öndər Heydər Əliyevin siyasi varisi Prezident İlham Əliyevin əlindədir. Prezident İlham Əliyevin bu siyasəti uğurla həyata keçirməsi nəticəsində Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətinə çevrilib, ötən dövr ərzində möhtəşəm iqtisadi uğurlara imza atılıb. Bunu təkcə Azərbaycan vətəndaşları deyil, bütün dünya təsdiq edir. Azərbaycana gələn hər bir şəxs ölkəmizdə gedən inkişafa heyran qalır. Bu gün xalqımız əmindir ki, müstəqil Azərbaycan Heydər Əliyev ideyaları işığında Prezident İlham Əliyevin rəhbərliyi ilə daha yüksək zirvələr fəth edəcəkdir.

Xalqımızın şanlı tarixinə daxil olan 28 may 1918-ci il Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması günüdür. Bu tarixdən 102 il keçir. Hər il Azərbaycan xalqı bu günü böyük sevinc hissi ilə əlamətdar hadisə kimi qeyd edir. Çünki Şərqdə ilk demokratik dövlət quruluşunu yaratmış Azərbaycan Xalq Cümhuriyyəti istiqlaliyyətimizi elan edərək xalqımızın müstəqillik əzmini nümayiş etdirmişdir.

hətta bir çox Avropa ölkəsindən daha əvvəl qadınlara seçki hüququnun verilməsi, Azərbaycan dilinin dövlət dili elan edilməsi, təhsil və mədəniyyətin inkişafına xüsusi diqqət göstərilməsi, nizami milli ordunun, təhlükəsizlik strukturlarının qurulması və sair işlər Xalq Cümhuriyyəti hökumətinin yürütdüyü siyasətin miqyasını, mahiyyət və mənasını əyani şəkildə səciyyələndirir.

# 28 May - Respublika Günü

1918-ci il mayın 28-də Azərbaycanın istiqlaliyyətinin elan edilməsində, Xalq Cümhuriyyətinin təşəkkül tapmasında və fəaliyyət göstərməsində Cümhuriyyətə rəhbərlik etmiş şəxslərin - Əlimərdan bəy Topçubaşovun, Məmmədəmin Rəsulzadənin, Fətəli xan Xoyskinin, Həsən bəy Ağayevin, Nəsib bəy Yusifbəylinin, Səməd bəy Mehmandarovun, Əliağa Şıxlinski və başqalarının böyük xidmətləri olmuşdur. Bu görkəmli dövlət xadimlərinin, vətənpərvər ziyalıların, peşəkar hərbçilərin adları xalqımızın yaddaşına əbədi həkk olunmuşdur.

Cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, ilk respublika dövründə həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir. Demokratik hüquq və azadlıqların bərqərar olması, etnik və dini mənsubiyyətdən asılı olmayaraq bütün vətəndaşların bərabər hüquqlarının tanınması,

Xalqımız yeni tarixi şəraitdə öz dövlət müstəqilliyini bərpa etdikdən sonra ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi altında Xalq Cümhuriyyətinin ənənələrini əsas tutaraq, müstəqil Azərbaycan dövlətini yaratdı. Azərbaycan Respublikası mürəkkəb vəziyyətdə öz müstəqilliyini və suverenliyini qorumağı və möhkəmləndirməyi bacardı, dövlətçiliyin qorunması üçün qətiyyətli tədbirlər görüldü, ölkədə davamlı ictimai-siyasi sabitlik bərpa edildi. Bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikasında demokratik, hüquqi, dünyəvi dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesi uğurla davam etdirilir. Bu sahədə qazanılmış nailiyyətlər qürur doğurur. Respublikamızda siyasi, iqtisadi və sosial islahatlar uğurla həyata keçirilir, ölkə iqtisadiyyatı dönmədən inkişaf etdirilir, əhalinin sosial müdafiəsinin gücləndirilməsi üçün təsirli tədbirlər görülür.

**İyunun 20-də Ümumdünya Qaçqınlar günü ilə əlaqədar Azərbaycanlı məcburi köçkünlər ilə Azərbaycan Respublikası Diasporla iş üzrə Dövlət Komitəsi Gənclərinin birgə videokonfransını Azərbaycan Respublikası Diasporla iş üzrə Beynəlxalq əlaqələr və protokol şöbəsinin müdiri Vüqar Məmmədov açaraq qeyd etmişdir ki, Ümumdünya Qaçqınlar Günü - BMT Baş Assambleyası 4 dekabr 2000-ci ildə iyunun 20-nin Ümumdünya Qaçqınlar Günü kimi qeyd edilməsinə dair qətnamə qəbul edib.**

vəzifəsi hesab edib. Bu problemlərin həlli istiqamətində Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi irimiqyaslı tədbirlər xüsusi önəm kəsb edir. Ümummilli Liderin 1993-2003-cü illərdə istər problemin siyasi yolla həlli istiqamətindəki fəaliyyəti, qaçqın və məcburi köçkünlərə daimi diqqət və qayğısı, çadır düşərgələrinin ləğvi istiqamətində atılan ilk addımlar sonrakı işlər üçün təməl olub. Ulu Öndərin 1998-ci ildə qəbul etdiyi Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə uzunmüddətli Dövlət Proqramına əsasən qaçqın və məcburi köçkünlərin sosial müdafiəsi

şəxslərin sosial problemlərinin həlli ilə bağlı beynəlxalq normalara uyğun tam hüquqi baza yaradılıb, bununla bağlı ölkə Prezidenti tərəfindən 96 fərman və sərəncam imzalanıb. Nazirlər Kabineti 368 qərar və sərəncam, Milli Məclis isə 34 qanun qəbul edib.

Sonra moderator, Azərbaycan Diaspor Gənclərinin Çində yaşayan, əslən Cəbrayıl rayonundan olan koordinatoru Cavid Əlyarlı çıxış edərək ərazilərimizin ermənilər tərəfindən işğalı ilə bağlı həqiqətlərin dünyaya çatdırılmasında görülmüş işlərdən danışmışdır.

Vidiokonfransda İşğal altında olan

# Videokonfrans keçirilmişdir

BMT-nin açıqlamasına görə, hazırda dünyada 20 milyona yaxın insan qaçqınlıq həyatı yaşayır və onların sayı artmaqda davam edir. Beynəlxalq Qaçqınlar Günü Azərbaycanda da hər il qeyd edilir. Bu isə heç də təsadüfi deyil. Belə ki, Azərbaycan xalqı bir əsrdə dörd dəfə ermənilər tərəfindən soyqırımına məruz qalıb, tarixi torpaqlarına təcavüz edilib, nəticədə yüz minlərlə soydaşımız öz ölkəsində qaçqına çevrilmişdir. Sonuncu dəfə 250 min etnik azərbaycanlı Ermənistandakı tarixi torpaqlarından qovulub, Azərbaycana pənah gətirib, 700 minə yaxın soydaşımız isə Dağlıq Qarabağdan və Ermənistan silahlı qüvvələrinin işğal etdiyi 7 rayondan didərgin salınaraq ölkənin 67 rayonunda 1600 məntəqədə müvəqqəti məskunlaşıblar.

Beynəlxalq konfransın aparıcısı, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Mətbuat Xidmətinin rəhbəri Nazilə Alməmmədova çıxışında göstərdi ki, Azərbaycan dövləti öz yurdlarından didərgin düşən soydaşlarımızın problemlərinin həllini hər zaman bir nömrəli

ilə bağlı geniş tədbirlərə start verilib, soydaşlarımız üçün yeni qəsəbələr salınmağa başlanılıb.

2003-cü ildən başlayaraq Prezident İlham Əliyev də bu istiqamətdə işləri ardıcıl və məqsədyönlü şəkildə davam etdirib. Ötən illərdə Azərbaycanın dinamik sosial-iqtisadi inkişafı qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli üçün böyük imkanlar yaradıb, onların mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması, məşğulluğunun artırılması istiqamətində görülən işlərin miqyası daha da artıb. Prezident İlham Əliyevin 2004-cü il 1 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramının və sonradan həmin proqrama 2007-ci il 31 oktyabr, 2011-ci il 21 fevral tarixli Sərəncamlarla təsdiq olunmuş əlavələrin icrasında uğurlu işlər görülüb.

Dövlət indiyədək məcburi köçkünlərə ümumilikdə 5 milyard dollardan artıq vəsait xərcləyib. Ölkəmizdə qaçqınların, məcburi köçkünlərin, qaçqın statusu almaq niyyətində olan

regionlarımızı təmsil edən on nəfər məcburi köçkün və qaçqın Xocalıdan Vəziyyar Əliyeva, Zəngilandan Möhübbət Qurbanov, Cəbrayıldan Mirzə Mirimli, Şuşadan Amil Məmmədov, Xocavənddən Şaiq Aslanov, Kəlbəcərdən Afət Mirzəyeva, Qubadlıdan Allahverdi Haxverdiyev , Laçından Orxanpaşa İbadov, Füzulidən Sevinc İsmayılova və Ağdamdan Rauf Bəxtiyarlı çıxışlarında Azərbaycanda qaçqınlıq və məcburi köçkünlük problemini aradan qaldırmaq üçün milli birliyin nə həmrəyliyin vacibliyini bir daha təsdiq etmişlər. Onlar sosial problemlərin həlli istiqamətində dövlətin və Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən həyata keçirilən ardıcıl tədbirlər haqqında məlumat vermişdilər.

Daha sonra Azərbaycan diasporunun ABŞ, Hollandiya və Nigeriyadan olan üzvləri Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində gördükləri işlərdən danışmışlar.

**"XUDAFƏRİN"**

# Həmyerlimizdən şad xəbər



**Əziz oxucular! Qəzetimizin ötən saylarında tanınmış şərqşünas alim, həmyerlimiz Şəhrizad Süleyman haqqında bir neçə yazının dərc edildiyi xatirinizdə olar. Bu yaxınlarda Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabi şəhərindən daha bir xoş xəbər almışıq. Bu xoş xəbər Şəhrizad xanımın bacısı ilə bağlıdır.**

"Covid 19"-la mübarizədə göstərdiyi fədakarlığa görə BƏƏ-nin (Birləşmiş Ərəb Əmirliklərinin) Səhiyyə Nazirliyində Aparat rəhbəri vəzifəsində işləyən xanım soydaşımız, əslən Cəbrayıl rayonundan olan, tanınmış şərqşünas alim, Əbu-Dabi Universitetinin Beynəlxalq əlaqələr kafedrasının müəllimi Şəhrizad Süleymanın bacısı doktor Saada Tofiq Süleyman Əbu-Dabi Əmirliyinin vəliəhdi, Birləşmiş Ərəb Əmirlikləri Silahlı Qüvvələrinin Ali Baş Komandanının müavini Şeyx Məhəmməd bin Zayed Al-Nəhiyan tərəfindən təşəkkür məktubu və fəxri mükafatla təltif olunub.

**Haşiyə:** Saada Süleyman kiçik yaşlarından ailəsi ilə bərabər Birləşmiş Ərəb Əmirliklərində yaşayır. BƏƏ-yə ailəvi gəlişinin səbəbkarı məhz rəhmətlik atası olub. Atası Tofiq Süleymanov kimya üzrə professor, üzvi kimyadan bəhs edən xeyli sayda elmi-metodiki kitabların müəllifidir. 1994-cü ildə Milli Elmlər Akademiyasında çalışan Tofiq Süleymanova Birləşmiş Ərəb Əmirliklərindən iş təklifi gəlir. Şarca əmirliyinə müqavilə əsasında işə dəvət olunan Tofiq müəllim öncə tərəddüd etsə də, sonda təklifi dəyərləndirərək qəbul edir.

Tofiq Nuri oğlu Süleymanov 10 iyul 1941-ci ildə Cəbrayıl rayonunun Karxulu kəndində anadan olub. 1966-cı ildə Azərbaycan Pedaqoji İnstitutunun kimya fakültəsinə daxil olub. 1979-cu ildə kimya elmləri namizədi alimlik dərəcəsi alıb. 1995-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir. 15-dən çox elmi ixtiranın, çoxlu sayda elmi-metodiki kitabların müəllifidir. Tofiq müəllim 12 avqust 2018-ci ildə Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabi şəhərində vəfat etmişdir. Ruhu şad, məkanı cənnət olsun!

Saada xanım "Əl-İbda" Qızlar Liseyini və BƏƏ Universitetinin "Tibb və sağlıq elmləri" fakültəsini bitirib. Ali təhsilini başa vurduqdan sonra Dubay Beynəlxalq Aeroportunda və Əhalinin Sosial Müdafiəsi Nazirliyində , 2010-ci ildən isə BƏƏ Səhiyyə Nazirliyində çalışır.

İctmai və iş fəaliyyətinə görə dəfələrlə BƏƏ rəhbərliyinin ali mükafatları, fəxri ödülləri ilə təltif olunub. BƏƏ Prezidentinin anası "Umm əl-İmarat" adlandırılan Şeyxə Fatma bint Mübarəkin təsis etdiyi "Əl-mar-a İmaratiyə" - "BƏƏ qadını" fəxri adına, eləcə də BƏƏ Prezidenti Şeyx Xəlifə bin Zayed Əl-Nəhyanın əmri ilə "İlin ən fəal ictimai qadını" tituluna layiq görülüb.

Ölkəmizdən uzaqlarda bizləri layiqincə təmsil edən, belə demək mümkünsə bir diasporun işini görərək ölkəmizi tanıdan bacılara, o cümlədən Saada xanıma ən səmimi arzularımızı çatdırır, onu təltif olunması münasibətilə ürəkdən təbrik edir, gələcək işlərində uğurlar arzulayırıq. Üzümüzü ağ etdiyiniz üçün üzünüz ağ olsun, Saada xanım!

**HİDAYƏT HÜMBƏTOĞLU,**
*baş redaktor müavini*

***"Xudafərin"dən:*** *qəzetin yaradıcı kollektivi olaraq biz də həmyerlimiz Saada Tofiq Süleymanı əldə etdiyi uğurları və təltifləri münasibətilə təbrik edir, ona şəxsi həyatında və iş fəaliyyətində uğurlar arzulayırıq. İnanırıq ki, uğurları davamlı olacaq, xoş xəbərləri ilə bizləri həmişə sevindirəcək.*

# İsrafil sur düdüyünü çalırdı həmin gün...



**Çox deyil, on beş il bundan qabaqdı,**
**O il Qarabağda qandan sel axdı.**
**Dağlara-daşlara yaman səs düşdü.**
**Vurhavur, qırhaqır, kəshakəs düşdü.**
**Göydə şimşək kimi tufanlar çaxdı,**
**Türk ilə erməni qanlıbıçaqdı...**

1937-ci ilin qanlı repressiyasının güdazına getmiş günahsız və nakam şairimiz Mikayıl Müşfiqin misralarıdır. Amma elə bil bu günlərdə yazılıb. Tarix təkrar olunur, tarixi hadisələri təsvirə çəkən şeirlər də öz vurğusunu, ritmini, məzmununu dəyişmədən həmin dövrü bu günün reallığı kimi əks etdirir. Aradan bir əsrlik zaman məsafəsi gəlib keçsə də, bədii əsərdəki dövrün ictimai mənzərəsi bu günümüzün yaşantıları ilə üst-üstə düşür. "Ədəbiyyat həyatın güzgüsüdür" deyimi bir daha özünü təsdiqləyir.

1992-ci ilin 28 iyununu çox yaxşı xatırlayıram. Daha doğrusu, o məşum günün şahidi olanlar o günü unuda biləcəklərmi?! M.Müşfiqin dediyi kimi, "dağlara-daşlara yaman səs düşmüşdü", "göydə şimşək kimi tufanlar çaxırdı", sanki yer-göy yerindən qopmuşdu həmin günü. Sur kəndindəki qanlı-qadalı atışmanın yayılım səsləri bizim Dağtumasın sıra dağları boyunca əks-səda verib, dəhşətli uğultu şəklində hər tərəfə yayılırdı. Lap elə dini-mifik inancın ifadəsi kimi desək, sanki qiyamət qopmuşdu. Qiyamətin günü idi həmin gün. Deyirlər qiyamət qopanda Allahın dörd mələyindən biri olan İsrafil sur düdüyünü çalacaq. O qanlı-qadalı döyüşün getdiyi kəndin adı Sur kəndi idi. 28 iyun 1992-ci ildə Cəbrayıl adlı mələyin adı ilə eyni olan Cəbrayıl rayonunun Sur kəndində gedən o ağır döyüşün qopardığı fırtına, məşum atəş səsləri elə İsrafilin çaldığı sur düdüyünün dəhşətli uğultusu idi sanki. Axırmənşər idi Surda. Sur dağlarında çalınan sur düdüyünün qorxunc səsi hər tərəfə yayıldığı kimi, Dağtumas dağlarında da məşum əks-səda qoparırdı. Rayonun ən ucqar kəndi olan Dağtumas sovetliyini-inzibati ərazi dairəsini də öz cənginə almışdı bu səs. Bəli, o gün ağır ləngərli Dağtumas camaatı da onları sarsıdan bir acı xəbərdən vəlvələyə düşdü. Sofulu kəndində Məhəmməd Xəlilovla Mahnisə xanımın ailəsi bu qiyamətin yükünü öz üstünə götürdü. Ailənin ilk övladı olan Elşən də həmin döyüşdə qəhrəmancasına şəhid oldu. Bütöv Dağtumas eli ağır, ləngərli dağ kimi hərəkətə gəldi, camaat axın-axın, dəstə-dəstə Dağtumas bölgəsinin ilk şəhidi olan Elşən Məhəmməd oğlu Xəlilovun dəfninə axışdı.

Beləcə, İsrafilin Surda çaldığı sur düdüyünün qiyamət qoparan sədaları altında Elşən "oynağa getdi" - ermənilərin üstünə qartal kimi şığıdı, erməni dığalarının neçəsini o dünyalıq edərək onlara qiyamətin əzabını yaşatdı.

Həmin döyüşdə Elşən Xəlilovun göstərdiyi döyüş rəşadəti və sonda qəhrəmancasına özünün də şəhid olması o vaxtı dildə-ağızda söylənildi, komandirinin və döyüş yoldaşlarının dilində etiraf olundu.

Evin-ailənin birinci uşağı idi Elşən, döyüşlərdə də həmişə öndə-birinci cərgədə gedərdi. Dağtumas ellərinin, Sofulu kəndinin də birinci şəhidi kimi adını tarixə yazdırdı Elşən. O vaxt mən "Taleyinə birincilik yazılmışdı" adlı yazı ilə "Xudafərin"də çıxış etdim, hünərinə şeir yazdım.

*Elşən, el şən olmaq üçün canını verdin,*
*Yurd yanğısın söndürməkçün qanını verdin.*
*Azərbaycan-bu möhtəşəm adın uğrunda*
*Çarpışaraq ona şəhid sanını verdin.*

*Elşən, elin dar günündə genəldi qəlbin,*
*Top-minomyot zərbəsindən sinmədi qəddin.*
*Ancaq vətən torpağının üstündə əsdin,*
*Ana yurdu səcdə üçün büküldü qəddin.*

*Elşən, elşən olmaq üçün yaranmışdın sən,*
*Məlhəm kimi el dərdinə yaranmışdın sən.*
*Xoş istiqbal arzusuyla çağladın, çünki*
*El şənliyin ürəyinə yar anmışdın sən!*

İsrafil Surda sur düdüyünü çalırdı həmin gün - 1992-ci ilin 28 iyununda. O tarixdən 28 il keçir. Elşənin atası Cəliloğlu Məhəmməd də məcburi köçkün kimi yurd nisgili ilə, oğlunun məzarına əli çatmadan bu dünyadan köçdü. Surda çalınan qiyamət havası hələ öz hökmünü sürdürməkdədir. Bu qiyamət havasının ağır təbilini sonda Azərbaycan əsgəri vuracaqdır. Onda qiyamət günü də öz yerini əmin-amanlıq dönəminə təslim edəcək, onda köçkünlük həyatımız da sona yetəcək, onda şəhidlərimizin də ruhları dinclik tapacaqdır. Bu, bizim qırılmayan ümidimizin, ölməyən inamımızın səsidir!

**Şakir PİRƏSƏDLİ**

# Qısa və şərəfli ömür yolu



28 iyun 1992-ci ildə Sur kəndində İrafilin sur düdüyünü çaldığı gün Soltanlı kəndində Telman dayı ilə Şahbaz xalanın da ailəsində qiyamət qopdu. Evin-ailənin ilk övladı olan Rufizin də həmin gün Sur döyüşündə şəhid olması xəbəri ildırım sürətilə bütün kəndə yayıldı. Bu dəhşətli xəbərdən gənc atanın beli vaxtsız büküldü. İkiqat olub bu ağır xəbəri içində çəkdi. Anası Şahbaz xalanın isə matı-qutu qurumuşdu. İnanmaq istəmirdi övladının belə qəfil, nakam ölümünə. Axı Rufiz şəhid olmamışdan əvvəl evlərinə xəbər göndərmişdi ki, üç günlüyə Bakıya silah gətirməyə gedirik. Ana sonradan başa düşür ki, valideynlərini səksəkədə, nigarançılıqda saxlamamaq üçün onları ala qoyurmuş-bilərəkdən yalan danışırmış. "Heç demə odunalovun içinə, qızğın döyüşə gedəcəkmiş balam", - belə deyib qəhərləndi Şahbaz xala.



Daha sonra isə əlavə edib dedi ki, Mart ayında əsgərliyə getdi, iyunda şəhid oldu balam-cəmi üç ayın əsgəri oldu. Elə hərbçi olmaq istəyirdi Rufiz. Əsgərliyə çağıranda sevinə-sevinə getdi. Oxumaq qaçmır ha, əvvəl torpağı qoruyaq, sonra oxuyaram dedi. Hərbçi olmaq istəyirdi, elə hərbçi kimi də şəhid oldu...

Bəli, niyyətin hara, mənzilin ora deyiblər. Rufiz Quliyev vətənin müsəlləh əsgəri kimi Cəbrayılın özünümüdafiə batalyonunun ilk əsgərlərindən oldu. Sıravi atıcı kimi sədaqətlə 3 ay doğma rayonunun müdafiəsində iştirak etdi.

6 dekabr 1973-cü ildə Soltanlı kəndində dünyaya təvəllüd tapan Rufiz Telman oğlu Quliyev 19 yaşında Sur döyüşündə qəhrəmanlıqla həlak oldu. Soltanlı kənd qəbiristanlığında da şəhid kimi torpağa tapşırıldı. O vaxt atası Telman kişi fəhlə kimi çalışırdı Soltanlıdakı Səməd Vurğun adına kolxozda, anası Şahbaz xanım satıcı işləyirdi. Sadə zəhmət adamları kimi firavan, xoşbəxt həyat yaşayırdılar. Rufiz, Hafiz, Eldəniz adlı üç oğul övladı böyüdürdülər. Sur döyüşü gənc ailənin növrağını pozdu, dincliklərini yox etdi. 1993-cü ilin 23 avqustunda isə ailə bütün Cəbrayıllılar kimi ikinci bir müsibətlə üzləşdi. Məcburi köçkünlük faciəsi ilə. Hazırda Abşeronda-Xırdalan qəsəbəsində məskunlaşıblar. Rufizin qardaşları Hafiz də, Eldəniz də ailə həyatı qurublar. Hafizin oğluna Rufizin adını veriblər. 9-cu sinifdə oxuyur. İncəsənət gimnaziyasında təhsil alır. İncəsənət Universitetinin aktyorluq fakültəsinə qəbul olmaq niyyətindədir. Arzusu çin olsun, Rufizin torpağı sanı Allah ömür versin, şəhid əmisinin arzularını əməllərində davam etdirib, Rufizin qısa və şərəfli ömür yolunu layiqincə yaşatsın.

Bir də Qarabağımız, işğal altda qalan torpaqlarımız işğaldan azad olsun, Rufizin vətəndə, Soltanlıda qərib qalan məzarını gedib ziyarət edə bilək, - deyirəm. Axı Rufiz elə bu amal uğrunda-torpaqlarımızın azadlığı yolunda canını fəda etdi. Onda digər şəhidlərimiz kimi Rufizin də ruhu dinclik tapıb şad olacaqdır.

**ƏLİFOĞLU**

# Cəbrayıllılar qanvermə aksiyasına qoşuldular



**Azərbaycan Respublkasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə koronovirus (COVID-19) pandemiyası ilə əlaqədar ölkədə xüsusi karantin rejiminin tətbiq olunduğu müddətdə respublikanın bütün bölgələrinin səhiyyə ocaqlarında talassemiyalı və hemofiliyalı xəstələri qan və onun komponentləri ilə təmin etmək məqsədi ilə qanvermə aksiyaları həyata keçirilir.**

Cəbrayıl sakinləri də bu nəcib aksiyaya qoşulmuşdur. İyunun 5-də Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə qəsəbələrdə fəaliyyət göstərən idarə, müəssisə və təşkilatların kollektivləri, hüquq-mühafizə orqanlarının əməkdaşları, ictimaiyyət nümayəndələri üçün könüllü qanvermə aksiyası təşkil edilmişdir.

Qanvermə zamanı donorların və tibb işçilərinin təhlükəsizliyini təmin etmək məqsədi ilə bütün zəruri tədbirlər həyata keçirilmiş, sosial məsafənin gözlənilməsinə, tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadəyə xüsusi diqqət yetirilmişdir. Aksiya müvəffəqiyyətlə başa çatmışdır.



**"XUDAFƏRİN"**

**Şair-publisist Mirzə Mirim oğlu Mirimlinin Cəbrayıl rayonu 8 saylı tam orta məktəbin 25 illiyinə həsr olunmuş ”Köçkün taleli məktəb” (”Təknur”, 2020) kitabı işıq üzü görüb. Redaktoru Zaur Vəliyev, məsləhətçiləri Əməkdar müəllim Rəhim Rəhimov, məktəbin direktoru Rauf Musayev və Qabaqcıl təhsil işçisi Hidayət Səfərli olan bu kitab pərəni pozulmuş, tifağı dağılmış insanların özünü toparlaya bilməsindən və sözün bütün çalarlarında bir məktəb yaratmalarından bəhs açır. ”Taleyimizin köçkün məktəbi” adlı ön söz əvəzi yazısında Hidayət Səfərli məhz bu kimi məqamlara işarə ilə yazır: ”Yalnız insanlar deyil, məktəblər də köçkün həyatı yaşayırmış. Köçkünlük illərində doğulub boya-başa çatmış övladlarımız kimi. Bu kitabda da belə bir məktəbin acılı-şirinli tale hekayəsini vərəqlədik. Heç bir maddi-texniki bazası olmayan, çətin bir şəraitdə formalaşan, çadır siniflərdən ibarət olan bu məktəb iyirmi beş ildən artıq fəaliyyət göstərərək şagirdləri ilə birgə böyüyüb, çoxlu sayda yetirmələri ona uzağlığı bəxş edib. Əziz qələm dostum, istedadlı şairimiz Mirzə Mirimlini də bu mövzuya müraciət etməyə sövq edən, məncə, elə bu üzağlığıdır. Bu kitab əsrin dörddə birini əhatə edən bir zamanın hesabatıdır. Hesabat həm də bundan sonrakı fəaliyyət üçün yeni bir başlanğıc, uğurlar üçün yeni bir stimuldur.**

# Köçkün məktəb 25 ildə

Yuxarıda qeyd etdiyim kimi, çadır məktəbi olaraq fəaliyyətə başlamaq olduqca çətindir. Bu ağrı-acıları yaşamış bir şəxs kimi bütün bunları çox yaxşı xatırlayıram. İlk aylarda ağac, bina kölgəsində fəaliyyətə başlayan, adi məktəbli oturacaqlarının olmadığı çadır siniflərindən ibarət olan məktəblərimizi xatırlamaq məcburiyyətindəyik. Çadır şəhərciklərinin, vaqon evlərin ləğvi məktəblərimizi də bu çətin şəraitdən çıxartdı”.

Bəli, əslində bu cümlələr elindən-obasından perik düşmüş əhalinin özünü bir məktəb şəklində yenidən təşkil etməsindən xəbər verir. Xalq artisti Alim Qasımov ayaq üstə dayanıb oxumaq, yaxud müasir dövrə müvafiq skamyada-oturacaqda əyləşib oxumağın asanlığından vaz keçərək, çətinliyə özünü qəsdən salaraq və keçmiş əyyama dönüş edərək, oturulu vəziyyətdə gərginlik çəkə-çəkə muğam, segah üstə ecazkar zəngulələr vurmağı bacardığı kimi, bizim əhalimiz də məcburi köçkünlüyün ilk ağır illərində sanki keçmiş zəmanənin məktəb həyatını təzədən qayıdıb yaşadı. O illərdə mən də bir müxbir kimi hərdən çadır düşərgələrinə baş çəkir, çadırlarda torpaq döşəmə üstündə əyləşmiş məktəblilərimizin acınacaqlı, zavallı görkəmlərini ürək ağrısı ilə müşahidə edirdim. Eynilə keçmişdəki kimi uşaqlar yerdən oturardular. Sanki keçmiş zəmanənin mənzərəsini məcburi olaraq təkrarlamaq da bir qəribə alın yazısı kimi taleyimizdə yaşanmalıymış. Buna mifologiyada ölüb-dirilmə (inisiasiya) mərasimi deyirlər. Amma doğrudan da, biz bir xalq, millət olaraq 1992-1993-cü illərin ağır məcburi köçkünlük illərində ölüb, yenidən dirildik. Taleyin ağır və acı məhrumiyyətlərindən keçdik. ”Dəyirmanın ağzından ölü salsan, ayağından diri çıxar” məsəlimizdə deyildiyi kimi, Milin-Muğanın cəhənnəm əzabını xatırladan ilanmələyən düzlərində dərbədər olub səpələnmək dağ havası yaşamış adamlar üçün elə ölümlə üzləşməyə, ölümə məhkum olmağa bərabər bir hal idi...

Yeri gəlmişkən, xatırladım ki, mən İran İslam Respublikasında orta məktəbə getdim. Orada da şagirdlərin yerdə oturduqlarının şahidi oldum. Onlardan Azərbaycan musiqisini ifa edə bilib-bilmədiklərini soruşdum. O uşaqlardan əksəriyyəti bizim Alim Qasımov sayağı yerdən oturulu vəziyyətdə çox gözəl məlahətli səslə xalq mahnılarımızı zəngulə etdilər. Azərbaycan dilində onlara bu cür musiqi dərslərinin keçirilmədiyi halda bu mahnıları necə öyrəndiklərini soruşdum, cavab verdilər ki, şifahi olaraq bizim Azərbaycan kanallarına baxmaqla ordan eşidib-gördüklərini şəxsi səyləri hesabına əxz edib mənimsəyiblər. Bu cavab özlüyündə həm acınacaqlı haldan xəbər verirdi ki, öz doğma dilində, doğma milli musiqi tədris olunmur, həm də ümidverici bir hiss doğururdu ki, milli ruh bu uşaqların qanındagenində çox güclü şəkildə yaşayır. Yoxsa ki, Suriyadakı, Ərəbistandakı türkman soydaşlarımızdan çoxu öz ana dillərində danışmağı belə unudublar ki, bax, faciə budur, bax, xalqın, millətin ölümü (diri-diri ölməsi) budur...

Mən yuxarıda nahaq yerə ölüb-dirilmə (inisiasiya) məsələsini yada salmadım. ”Millət məktəbdə doğulur” kəlamının işığı ilə hərəkət edəndə, bir daha görürük ki, xalqın ölüb dirilməsi prosesi bilavasitə məktəb həyatı ilə bağlıdır. O məktəb sadəcə ”məktəb” sözünün ifadə etdiyi leksik mənası ilə məhdudlaşıb qalmır, o məktəb cəmiyyətin özünü yenidən təşkili üçün zəruri olan bütün keçmiş təcrübənin, adət-ənənələrin, bir sözlə, əxlaqi-mənəvi dəyər formullarının bir estafet olaraq yaşadılmasında və gələcəyə ötürülməsində özünün tam reallığını tapır.



Şair-publisist Mirzə Mirimli konkretləşmiş halda məhz bu məktəblərdən birinin-məcburi köçkünlük dövründə əsası qoyulmuş 8 saylı tam orta məktəbin Cəbrayıl rayonu əhalisi arasında oynadığı mühüm fəaliyyətindən söhbət açır. Rayon Təhsil Şöbəsinin müdiri Zamiq Qurbanovun kitabda gedən yazısında Ulu Öndərin fikirlərini diqqətə çəkərək dedikləri də yuxarıda söylədiklərimin məntiqi təsdiqi kimi səslənir:

”Müasir məktəbin qarşısında duran əsas vəzifə təhsilin ümumbəşəri mövqeyinin yeniləşdirilməsi və uşaq şəxsiyyətinin formalaşmasıdır. Odur ki, əsas məqsədimiz şagirdlərə dərin bilik vermək, verilmiş bilikləri həyatda tətbiq etmək bacarığı aşılamaq, hərtərəfli inkişaf etmiş şəxsiyyət yetişdirməkdən ibarətdir. Məktəbin inkişafedici konsepsiyasının mərkəzində şəxsiyyətun modeli dayanır ki, istədiyin vaxt onu irəlilətmək sadəcə sosial pedaqoji mahiyyət daşımır. Bu, həm də özünəməxsus psixopedaqoji anlam kimi qəbul edilməlidir. Ümummilli lider Heydər Əliyev deyirdi: - ”Biz gələcəkdə Azərbaycan təhsilinin daha da təkmilləşməsinə, keyfiyyətinin yüksəlməsinə nail ola biləcəyik. Gələcək bilikli, elmli insanların çiyinləri üstündə qurulmalıdır”. Müasir dövrdə ümumtəhsil məktəbi hər bir təhsil alana elmi və tətbiqi bilik verməlidir.

İndiki dövrün tələbləri Azərbaycanda prioritet istiqamət kimi biliyin formalaşdırılmasını, insan kapitalının inkişafını əsas götürür. Bu baxımdan müəllim əməyinin stimullaşdırılması gənc nəslin hərtərəfli yetişməsində əsas şərtdir. Təhsil daimi dəyişən və yeniliklər tələb edən bir sahədir” (s.5-6).

Zamiq müəllim əbəs yerə burada ”təhsilin yeniliklər tələb edən bir sahə” olduğunu qeyd etmir. Doğrudan da, təhsil həm də cəmiyyətin inkişaf qayda-qanunları ilə səsləşməlidir, bu inkişaf isə hər şeydən əvvəl, özünü yeniliklər şəklində gerçəkləşdirir. Mənə elə gəlir ki, bu yeniliklərlə vaxtlı-vaxtında ayaqlaşa bildiyindəndir ki, M.Mirimlinin haqqında danışdığı 8 saylı orta məktəb özünün keçmiş olduğu bu ağır və çətin şərəfli illərdə-25 ildə mühüm uğurları əldə edə bilib. Bu nailiyyətin qısa xülasəsini biz Zamiq müəllimin çıxışından da görürük: ”Hazırda Cəbrayıl rayonu üzrə 41 ümumtəhsil məktəbi fəaliyyət göstərir ki, onların 16-sı Bakı şəhərində, 4-ü Sumqayıtda, 11-i Biləsuvar ərazisindəki qəsəbələrdə, qalanları isə respublikamızın digər bölgələrində fəaliyyət göstərirlər. Həmin təhsil ocaqlarından biri də təməli 1994-cü ildə qoyulmuş Cəbrayıl rayonu 8 nömrəli tam orta məktəbdir. Bu müddət ərzində məktəb fəaliyyətinin məşəqqətli ilk on ilini fədakar müəllimləri ilə bərabər çadır şəhərciyində sürdürmüşdür. Qalan on beş ilini isə Biləsuvar rayonu ərazisində salınmış bir saylı məcburi köçkün qəsəbəsində davam etdirmişdir. Bu dörddə bir əsr ərzində məktəbi bitirmiş şagirdlərdən 200 nəfərə qədəri respublikanın və digər ölkələrin ali məktəblərindən müxtəlif peşələr üzrə məzun olmuşlar. Məktəbin əldə etdiyi bu nailiyyətlər dövlətimiz tərəfindən layiqincə qiymətləndirilmişdir. Təkcə onu demək kifayətdir ki, məktəbin iki nəfər müəllimi Prezident Fərmanı ilə ”Respublikanın Əməkdar müəllimi” fəxri adına, bir şagirdi isə rayonun tarixində ilk dəfə olaraq prezident təqaüdünə layiq görülmüşdür” (s.7).

Bundan sonra Mirzə Mirimli rayon haqqında, onun təhsili barədə ümumi məlumatları diqqətə çatdırır. Daha sonra mövzusuna uyğun olaraq 8 saylı məktəbin yaranma tarixini gözdən keçirir. Sonda isə məktəb həyatının ayrı-ayrı anlarına güzgü tutan fotoşəkillər təqdim olunur ki, bu da kitabda oxunanlarla bağlı əyaniliyə xidmət edir.

Əsrin bir çərəyi-dörddə biri olan 25 il müddətində Cəbrayıl rayonu 8 saylı tam orta məktəbin fəaliyyəti Mirzə Mirimlinin təqdimatında beləcə vərəqlənir və köçkün taleli məktəbin simasında millətin, xalqın-konkretləşmiş şəkildə bir xalqı təmsil edən bir toplumun, köçkün əhalinin ölümün içindən keçib dirilik tapdığı-yenidən doğulduğu göstərilir. Əsrin bir rübünü təşkil eləyən bu 25 il ərzində həmin məktəbin o vaxt 1-ci sinifinə qədəm qoyanlar orta məktəbi də bitiriblər, elələri var ki, gedib ali təhsil alıb, ali təhsilli gənc kimi yenidən qayıdıb həmin ( və ya başqa bir) məktəbdə müəllim kimi fəaliyyət də göstərib, hələ desən, ailə həyatı qurub övladuşaq sahibi kimi öz övladlarını həmin məktəbə göndərən valideynlik haqqına da çatıblar. Göründüyü kimi, müəllim-şagird- valideyn, bütövlükdə cəmiyyət həyatının ortaq ünvanı, məkanıdır məktəb. Gün gəlsin ki, bütün məcburi köçkün taleyi yaşayan məktəblərimiz kimi, 8 saylı orta məktəb də doğma ünvanına-məkanına qovuşsun, bu gün yaşadığımız məcburi köçkünlüyümüzdən də, ”köçkün taleli məktəb”dən də xatirələr danışaq. Mirzə müəllimin bu kitabını da xatirə kitab kimi gözdən-nəzərdən keçirək!

**ALP ALI**

## TALEYİMİZİN KÖÇKÜN MƏKTƏBİ

Yalnız insanlar deyil, məktəblər də köçkün həyatı yaşayırmış. Köçkünlük illərində doğulub boya-başa çatmış övladlarımız kimi. Bu kitabda da belə bir məktəbin acılı-şirinli tale hekayəsini vərəqlədik. Heç bir maddi-texniki bazası olmayan, çətin bir şəraitdə formalaşan, çadır siniflərdən ibarət olan bu məktəb iyirmi beş ildən artıq fəaliyyət göstərərək şagirdləri ilə birgə böyüyüb, çoxlu sayda yetirmələri ona uzağlığı bəxş edib. Əziz qələm dostum, istedadlı şairimiz Mirzə Mirimlini də bu mövzuya müraciət etməyə sövq edən, məncə, elə bu üzağlığıdır. Bu kitab əsrin dörddə birini əhatə edən bir zamanın hesabatıdır. Hesabat həm də bundan sonrakı fəaliyyət üçün yeni bir başlanğıc, uğurlar üçün yeni bir stimuldur.

Yuxarıda qeyd etdiyim kimi çadır məktəbi olaraq fəaliyyətə başlamaq olduqca çətindir. Bu ağrı-acıları yaşamış bir şəxs kimi bütün bunları çox yaxşı xatırlayıram. İlk aylarda ağac, bina kölgəsində fəaliyyətə başlayan, adi məktəbli oturacaqlarının olmadığı çadır siniflərindən ibarət olan məktəblərimizi xatırlamaq məcburiyyətindəyik. Çadır şəhərciklərinin, vaqon evlərin ləğvi məktəblərimizi də bu çətin şəraitdən çıxartdı. Vaxtilə çadır şəhərciyində fəaliyyətə başlayan, bu kitabda haqqında söz açılanCəbrayıl rayonu 8 saylı tam orta məktəb də indi qəsəbə məktəbi olaraq fəaliyyətini davam etdirir.

Bu kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulub. Müəllif yalnız bir məktəbin fəaliyyətini işıqlandırmaqla kifayətlənməyib. Həm də ümumi Azərbaycan təhsili kontekstində Cəbrayıl təhsilinin də keçdiyi şanlı tarixi yola işıq tutub. Oxucular bu sahədə maraqlı statistik məlumatlarla tanış olacaq, tanınmış pedaqorlarımızla bağlı məlumatlar əldə edəcəklər.

Yüz minlərin, milyonların bir arzusu var: Doğma yurd yerlərimizə qayıtmaq və fəaliyyətimizi orada davam etdirmək. Bu həm də haqqında söhbət açılan məktəbin müəllim və şagird kollektivinin arzusudur. İnşallah, bu arzumuz da yaxın zamanlarda reallaşacaq, doğma yurd yerlərimizə dönəcəyik. Ölkəmizdə aparılan genişmiqyaslı tədbirlər, xüsusilə ordu quruculuğu sahəsində görülən işlər bunu deməyə əsas verir.

Bir oxucu olaraq məktəbin pedaqoji kollektivini ürəkdən təbrik edir, onlara Cəbrayıllı fəaliyyət illəri arzulayıram. Arzu edirəm ki, bu köçkünlük həyatı bizlər üçün tarixə çevrilsin, müəllif, şair Mirzə Mirimli də arzusunda olduğumuz illərin fəaliyyət tarixini qələmə alsın.

**HİDAYƏT SƏFƏRLİ,**
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü, Qabaqcıl Təhsil işçisi*

## Sahib Fərzəliyev - 60

# Amallarını əməllərində gerçəkləşdirən alim

Həyatda yüksək mənsəb sahibləri olan adamları həmişə çalışmışam ki, iki dəfə tanıya biləm. Çünki birtərəfli tanışlıq məndə həmin adam haqqında bitkin təəssürat yaratmır. Belə yüksək mərtəbə sahiblərindən biri olan görkəmli alim Sahib AbdulƏli oğlu Fərzəliyevi yaxşı tanımaları üçün oxucularımıza iki dəfə təqdim etmək istəyirəm. Birinci təqdimat hər kəs üçün ilkin tanışlıq kimi xarakterizə olunan rəsmi tərcümeyi-haldan başlanır: Sahib AbdulƏli oğlu Fərzəliyev 1960-ci il may ayının 23-də Cəbrayıl rayonun Minbaşılı kəndində anadan olub. 1977-ci ildə Minbaşılı kənd orta məktəbini əla qiymətlərlə bitirib. Azərbaycan İnşaat Mühəndisləri İnstitutuna daxil olub və "sənaye və mülki tikinti" ixtisası üzrə tam kursu bitirib. Əmək fəaliyyətinə Sumqayıtdakı 3 saylı Evtikmə Kombinatında başlayıb. 1983-1987-ci illərdə, evtikmə



kombinatının 103 saylı tikinti idarəsində mühəndis, böyük mühəndis və şöbə müdiri vəzifələrində çalışıb. 1987-ci ildə İnşaat Mühəndisləri İnstitutunun Elmi-Tədqiqat sektoruna Baş elmi işçi-bölmə rəhbəri vəzifəsinə keçib. 1988-1992-ci illərdə Moskva şəhərində Ümumittifaq Elmi-Tədqiqat İnstitutunda dissertant olub, namizədlik dissertasiyasını tamamlayıb və müdafiə edərək, alimlik dərəcəsi alıb. 1987-1990-cı illərdə Azərbaycan İnşaat Mühəndisləri Uni-



versitetinin "Dəmir beton konstruksiyaları" kafedrasında saat hesabı, 1990-2011-cı illərdə "Tikintinin təşkili və idarə olunması" kafedrasında assistent, baş müəllim, dosent vəzifəsində işləyib. 2011-ci ildən "Tikinti istehsalatının texnologiyası, təşkili və idarə olunması" kafedrasının müdiri vəzifəsində işləyir. "İnşaat" fakültəsinin və Universitetin Elmi Şuralarının üzvü, Universitetin Elmi Şurası yanında "Elm və Təhsil üzrə Komissiyasının" sədridir. O, həmçinin "İnşaat mühəndisliyi" üzrə magistr elmi dərəcəsi almaq üçün İxtisaslaşmış Şuranın sədridir. Sahib müəllim elmi-pedaqoji fəaliyyəti dövründə 150-ə yaxın elmi məqalənin, 17 tədris proqramın, 5 metodiki və 7 dərslik və dərs vəsaitinin müəllifidir. Həmçinin respublikamızın bir sıra aparıcı layihə İnstitutları ilə əməkdaşlıq edir. Respublikamızda aparılan iri miqyaslı tikinti işlərinin layihələndirilməsində yaxından iştirak edir. Sahib Fərzəliyev respublikamızın ictimai-siyasi həyatında fəal iştirak edir. O, 1990-cı ildə Bakı şəhər sovetinin deputatı olub. 1998-ci ildə "Potensial" Sumqayıt Mütəxəssislər" Birliyini təsis edib və hal-hazırda həmin Birliyin sədridir. Birlik 21 ildir xeyirxah, humanist bir fəaliyyətlə məşğul olur. Bu dövrdə yerli və beynəlxalq təşkilatların- Böyük Britaniyanın OXFAM, ABŞ səfirliyinin Demokratiya Komissiyası, Avrasiya Fondu, Norveç Qaçqınlar Şurası, BMT QAK, Norveç səfirliyi, ABŞ-ın World Vision, Conterpart, USAİD, ACİ Budapest, AR Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurası və sairələrin dəstəyi ilə həyata keçirilən 35-dən çox layihənin rəhbəri olub. Sahib müəllim pedaqoji sahədə uzun illər əmək sərf etdiyinə görə 2016-cı ildə Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif olunub. O, müharibə veteranıdır. Bu xidmətlərinə görə də bir sıra orden, medal və dövlət təltifləri var. "Avrasiya" Memarlar Evinin qızıl medal mükafatçısıdır. Sahib Fərzəliyev Yeni Azərbaycan Partiyasının üzvüdür. Ailəlidir. 2 oğlu, 4 nəvəsi var.

Bəli, bu, hamı üçün qaneedici olan rəsmi tanıtım üsuludur. Amma mən istərdim ki, Sahib müəllimi ikinci dəfə də tanıyam. Daha doğrusu, ikinci dəfə tanımış olduğum Sahib müəllimi də oxuculara təqdim edəm. Bu ikinci dəfə



tanımağın adına el arasında yaxından tanımaq, yaxşı tanımaq deyirlər. Adamı yaxından tanıya bilməyin mahiyyətində həmin şəxsin bir insan kimi nəyə qabil olduğunu, hansı düşüncə və əməllərin sahibi olduğunu tanıyıb-bilmək şərtləri dayanır. Bunun üçün gərəkdir ki, ünsiyyət tapmaq, müsahib olmaq və bu əsnada onun hansı mənəvi - iradi keyfiyyətlərin daşıyıcısı olduğunu üzə çıxarmaq. Bu zaman səmimi ünsiyyət qurub söhbətin təbii şəkildə öz axarı ilə getməsinə əməl etmək çox vacib amildir. Əks təqdirdə, hər iki tərəf (yəni danışan tərəflər) sıxıntıya məruz qalar, insan özünü ifadə etməkdə çətinlik çəkər və nəticədə danışan kəsin daxili dünyasına açılan qapıdan içəri daxil ola bilməzsən.

Bu məqsədlə də yaddançıxmaz uşaqlıq illərindən söz saldım. Rasim və Arif adlı əmisiuşaqları ilə uşaqlıqlarının bir yerdə keçdiyini xatırlatdı. Ancaq Rasimin bir il ondan tez, Arifin isə ondan bir il sonra 1-ci sinifə getdiyini yada salıb, sanki uşaq vaxtı təklənmiş olduğunu kövrək anlar kimi dilə gətirdi. Daş Veysəlli, Sədi və Minbaşılı kəndinin uşaqlarının yığışıb eyni məktəbə gəldiklərini bildirdi. Sinif müəllimi kimi Məhəmməd müəllimin adını xüsusi ehtiramla çəkdi, əlaçı şagird kimi olimpiadalarda iştirak etdiyini, siniflərindəki divar qəzetinin redaktoru olduğunu da dedi. Daha sonra ali məktəbə qəbul olduğunu, lakin tələbəlik sevincini də əməlli-başlı yaşamağa qoymadıqlarını qeyd etdi. O vaxtlar tələbələri də əsgərliyə aparırdılar, - dedi. Bundan başqa, aspiranturada qaldığını, Moskvada Qarabağ hadisələri ilə bağlı da ermənilərin ona elmi işini müdafiə etməyə imkan vermədiklərini də həyatının acılı anları kimi yada saldı. Bütün bunlarla demək istəyirdi ki, min bir əzab-əziyyətlər hesabına qazandığı uğurların sevincini - yəni sevincin dadını-duzunu çıxarmağa, sevinci sanki axıracan dadmağa macal vermirdilər. Eləcə də institutu bitirəndən, alim adını alandan sonra da doğma kəndində, elində-obasında bu şərəfli adların sevincini doyunca yaşamaq ona nəsib olmayıb. Belə ki, söhbət əsnasında: Məhəmməd əmim mənə "Sahib müəllim" deyəndə elə bilərdim ki, mənə ən yüksək rütbə - general deyirlər. Bundan çox qürurlanardım. Təəssüf ki, mən böyüdüm, yeni elmi rütbə ad aldım, amma bunun müqabilində doğma kəndimə, elimə, obama heç nə eləyə bilmədim, kəndim, rayonum işğal olundu",- deyə təəssüfləndiyini bildirdi.

Qeyd edim ki, Sahib müəllim təvazökarlıqla belə desə də, əslində məcburi köçkünlükdə kəndinin camaatının çoxu onun üstünə gəlib, ümid yeri bilib ona pənah gətirib. O da əlindən gələn lazımı köməkliklərini öz həmellilərindən əsirgəməyib.

Bəli, onunla söhbət edə-edə onu ikinci dəfə bu cür tanımağa başlayıram. Adamı iki(nci) dəfə tanımaq bax belə məqamlarda mümkün olur.

60 illik həyatımda yaxşı-pis nə varsa, hamısı mənə məxsusdur. Çünki acılı-şirinli nə olubsa, hamısı özümün halallıqla qazandıqlarımdı və buna görə də mənə şirindi, doğmadı yaşadıqlarım. Xoşbəxtəm ki, belə həyat yaşamışam. Həyatımda heç nəyi korrektə etməzdim. Bircə təəssüflənməli şey var ki, elimi-obamı itirmişəm. Mənim ayaq izlərim var o kənddə, o yurdda. Uşaqlığım, gəncliyim orda qalıb, ululanmız orada uyuyurlar...



Bu fikirlərin arasından Sahib AbdulƏli oğlu Fərzəliyevin bir insan kimi mənəvi dünyasının qapıları açılır üzümüzə: heç nəyə təəssüflənməyən insanın bircə şeyə-yurd itkisinə təəssüflənmək yanğısı...



Bu cür istiqanlı danışığı ilə elinin-obasının təəssübkeş ziyalısı kimi gözümdə böyüyən Sahib müəllimdən bu məqamda nə vaxt ailə həyatı qurmasına dair sorğuma cavabı da belə oldu ki, 1986-cı ildə Tağıyeva Tamella Vəli qızı ilə ailə həyatı qurub. Murad və Fuad adlı iki oğlu var. Sumqayıtda orta məktəbi bitiriblər. Murad 600-dən çox balla İqtisad Universitetinin maliyyə-kredit fakültəsinə qəbul olub, sonra magistratura pilləsini qırmızı diplomla bitirib, maliyyə işləri üzrə aparıcı mütəxəssisdir. Fuad da ali təhsillidir və təhsilinin bir hissəsini Amerikada davam etdirib. Hər oğlumun bir qızı və bir oğlu var. Muradın balaca vaxtı kəndimizdə çəkdirdiyi şəkli əziz bir nişanə kimi saxlayıram. İkinci oğlum Fuad isə kəndimizi görməyib. Ən böyük arzum ailəmlə, nəvələrimlə kəndimizə getməyim, övladlarımla, nəvələrimlə hər il yay tətilini kəndimizdə keçirməyimdir ki, Allah bunu bizə tezliklə qismət eləsin.

Söhbətdən də bir daha görürük ki, Sahib müəllimdə el-oba, yurd təəssübkeşliyi ruhundan gəlir. O, vətəninə, torpağına bağlılığını təkcə özünün simasında yox, bütöv ailəsinin timsalında görüb - dəyərləndirir. Vətəni bir fərd olaraq təkcə özünün sevməsi ilə kifayətlənmir, yurd sevgisinin qanını daşıdığı varislərinin də ruhunda - canında daşınmasını arzulayır.

Əlbəttə, məhz bu kimi incə detalları onun söhbətindən sezməyim və müşahidə aparmağım mənim nəzərimdə Sahib Fərzəliyevin təəssübkeş ziyalı obrazını dolğunluğu ilə formalaşdırır. İkinci dəfə tanıdığım Sahib müəllimin ziyalı - alim obrazı ilə vətənpərvər insan obrazını bir-birilə sıx şəkildə qovuşdurur. Vətən sevgisi ilk növbədə insanın ruhundan, ailəcanlılığından başlamalıdır. Öz doğmalarına qayğıkeşliyindən, həmçinin qədirbilənliyindən başlamalıdır. Yurd sevgisi üçün təməl olaraq ilk sırada bu kimi amillər dayanmalıdır. Öncə özünün qədrini bilmirsənsə, öncə özününkülərə, doğmalarına dəyər verə bilmirsənsə, ətraf aləmə qarşı hansı sevgi və qədirbilənlik hisslərindən söhbət gedə bilər ki?..

**(Davamı səh.6-da)**

(Əvvəli səh.5-də)

# Amallarını əməllərində gerçəkləşdirən alim

Məhz bu prinsipdən düşündükdə, Sahib müəllimin söhbətindən tutduğum bir incə nüansı diqqətə çəkmək istərdim. Bu, onun tələbəlik illərini xatırlaması ilə bağlıdır. Deyir ki, mən on iləcən Eldar əmimgildə qalmışam. 1977-ci ildən 1985-ci iləcən - mən şəhərdə ev alana kimi ata əvəzi olub mənə. İnstitutda dərslərim gec qurtaranda, evə gec gəlirdim. Əmim yatmayıb nigarançılıqla məni gözləyirdi. Eyni zamanda atam orta məktəbdə oxuduğum illərdə mənim təhsilimlə-oxumağımla necə maraqlanıb, mənə nəzarət edirdisə, Eldar əmim də o qaydada institutda oxumağımı ciddi nəzarətdə saxlayır və tez-tez təhsilimlə maraqlanırdı.



Fikir verirsinizmi söhbətin məzmununa. Orta məktəb illərində uşaq kimi atasının nəzarətində olan Sahib müəllimin tələbəlik dövründə də ata kimi nəzarətçisi əmisi olub. Halbuki indiki dövrdə təəssüf ki, bu cür klassik, yəni dədə-babalardan gəlmə nəzarət üsulu demək olar ki, arxa plana keçib. Elə bu kimi hallardandır ki, dədəbabaların təbiri ilə desək, "qaşıq çömçədən yekə olur". Hər ailədə bir və ya bir neçə uşaq yetişib, tələbə olur, artıq həmin tələbələrin hərəsi özünü hökmi-ixtiyar sanır, nəticəsi isə yenə atalar misalı sayağı olur: ”Hətis keyxa, Mətis keyxa, bir evdə var otuz keyxa”. Mən belə düşünürəm ki, insanın bütöv şəxsiyyət olaraq formalaşmasında məhz onun klassik tərbiyə məktəbindən keçməsi mühüm rol oynayır. Bəli, Sahib Abduləli oğlu Fərzəliyevin istər bir alim kimi, istər də bir əsl vətəndaş kimi bu günkü səviyyəyə gəlib çıxmasının əsasında onun ailə tərbiyəsinin, genindən-qanından gələn ruhun inkarolunmaz rolu vardır. Ailəcanlılıq, el-oba təəssübkeşi, yurd sevgisi- bütün bunlar onun alim şəxsiyyətini təyin edən amillərdir.

Sahib Fərzəliyev Baş Elmi Bərpa Layihə İnstitutunda məsləhətçi olan vaxtlarda Hacı Qaraman ziyarətgahının yenidən bərpa olunması layihəsinin də müəllifi olub. ”Ziyarətgahın bərpa layihəsini versəm də, gedib oranı o vaxt ziyarət edə bilmədim. Qismət olsun tezliklə gedək bütün Cəbrayıllıların müqəddəs ocağı olan Hacı Qaramanımızı ziyarət edək”, - deyən alimin hər sözündə-söhbətində yurd nisgili, vətən həsrəti boy göstərir. Amma onu da qeyd edək ki, Sahib müəllimin vətən sevgisi yalnız doğulub boya-başa çatdığı kəndi, rayonu ilə qapanıb qalmır, bir azərbaycanlı övladı kimi onun yurd sevgisi bütöv Azərbaycan boydadır. Onun doğma ailəsindən, doğulduğu yurddan başlanan sevgisi öz şaxələrini Azərbaycanımızın bütün əraziləri boyunca uzadıb - genişləndirib. Belə ki, o, yaşadığı Sumqayıt şəhərində eyni dərəcədə sədaqətlə bağlıdır. Onun 1998-ci ildə yaratdığı ”Potensial” Sumqayıt Mütəxəssislər Birliyi 18 mindən çox vətəndaşa pulsuz hüquqiyardım xidməti göstərib. Həmçinin respublikamızın 25 rayonunda da bu cür fəaliyyət göstərilib ki, bu da mahiyyətcə ”vətənin (elin) o baş-bu başı olmaz” deyimimizin Sahib Fərzəliyevin qənaətində də beləcə gerçəkləşdiyini aydın göstərir. Ulu Öndər Heydər Əliyevin o vaxt xaricdə təhsil alan gənclərimizin təcrübəsindən yararlanmaqla bağlı verdiyi tövsiyəyə əsasən xaricdə təhsil almış bir qrup ziyalını öz ətrafında birləşdirən bu Birlikdə həmyerlimiz, tanınmış həkim - ziyalı Hümbət Quliyev də təşkilatın idarə heyətinin üzvü idi.





Bəli, bu gün Sumqayıt əhalisinin mənəvi sığınacaq mərkəzi kimi tanıdıqları ”Potensial” Sumqayıt Mütəxəssislər Birliyinin yaradıcısı məhz Sahib Fərzəliyevdir. Onun yurduna, vətəninə və ölkəsinin vətəndaşlarına olan tükənməz sevgisi bu gün həm də bu yurdun, diyarın sakinləri tərəfindən onun özünə doğru yönəlibdi. Çünki belə olmasaydı, onun təsisçisi olduğu Birliyə insanlar mənəvi sığınacaq mərkəzi kimi baxmazdı. İnsan o yerə, o ünvana sığına bilir ki, ora inanır, ora etimad bəsləyir, ora etibar edir.

Sahib müəllimin ümumazərbaycan yanğısını nümayiş etdirən anlardan birinə də toxunmaq istərdim. Sovet ordusundakı xidmətini qanlı-qadalı Əfqanıstan torpağında keçirən Sahib Fərzəliyev iki ildən sonra doğma Azərbaycanına dönüş etdikdə əvvəl Tacikistan, oradan isə Yerevana uçuş edir. Yerevandan Bakı aeroportuna endikdə isə o, tramplini gözləmək istəməyib, o qədər vətən həsrəti ilə yaşayırmış ki, təyyarənin tramplini (eniş pilləkənini) gözləmədən özünü yerə - Bakı, Azərbaycan torpağının üstünə, başqa sözlə, vətəninin qoynuna atmaq istəyib. Təbii ki, ona özünü yerə atmağa imkan verməyiblər. Məhz bu məqam da ondakı torpaq həsrətinin, vətən sevgisinin nə qədər güclü olduğuna dəlalət edən faktlardan biridir. Uşaqlıq illərindən canına-ruhuna hopdurulan vətənpərvərlik duyğusu 20 yaşlı bir gəncdə bax bu səpkidə tüğyan etmiş, ikiilik vətən ayrılığının son məqamında təyyarənin tramplinini gözləməyə səbri çatmadığından, özünü birbaşa vətən torpağının ağuşuna atmaq istəyində olmuşdur. Bu duyğunu canında - ruhunda inkişaf etdirən Sahib Fərzəliyev gördüyümüz kimi, artıq bu gün vətənpərvərliyi sadəcə bir duyğu, istək kimi yaşatmaqla kifayətlənməmiş, vətənpərvərlik amalını əmələ çevirmişdir. ”Çalış öz xalqının işinə yara, geysin əməlinlə dünya zərxara” deyən Nizami babamızın vəsiyyəti Sahib Fərzəliyevin həyatında real ifadəsini tapmışdır.

Sahib müəllim onu da danışdı ki, aeroportdan avtovağzala gələndə Mürsəl əmimi gördüm. Baxdım ki, əmim heç mənə tərəf baxmır da. Əfqanıstanda hərbi xidmətin çox ağır və dəhşətli keçməsi məndə tanınmağa hal qoymamışdı, tanınası sifətim qalmamışdı, həddsiz arıqlamışdım. Buna görə də əmim məni tanımamışdı. Mən ona yaxınlaşdım, boynuma sarıldı, üzümdən-gözümdən öpüb tez taksi tutdu. Taksiyə oturub Sumqayıta getdik. Evə çatandan sonra yadına düşdü ki, evlərinə aldığı paltaryuyan maşını məni görəndə sevindiyindən unudub, elə orda da qoyub gəlib. ”Hamısı Sahibə qurban olsun. Qanın-qadanın içindən ki, salamat qurtarıb gəlib, bu, mənim üçün hər şeydir”, - dedi.

Həyatındakı bu cür epizodları əbəs yerə xatırlamırdı müsahibim. Əmisi Mürsəl kişinin onun yolunda çəkdiyi əziyyəti yada salmaqla əslində Sahib müəllim boynunda haqqı olan əzizlərinin, doğmalarının əməyinə qiymət verirdi. Bu söz-söhbətin məğzində həm də 60 yaşlı bir müdrikin dönüb özünün şirinli-acılı keçmişinə baxması-keçmişini yaddan çıxarmaması düşüncəsi vardı. Ömrün hər pilləsinin özünəməxsus bənzərsizlikləri olur. Bu pillələr insanı təkamülə çatdıran həyat nərdivanıdır.

Bu xatırlatma ilə Sahib müəllim sanki həm də hər kəsə qədirbilənlik nümunəsi göstərirdi. Çünki unutqanlıq etmək nə vaxtsa insana edilmiş xeyirxahlığı yaddan çıxarmağa səbəb olur və nəticədə bu yaxşılığı qiymətləndirə bilmirsən...



Alim əməyi ümumiyyətlə xalqa, vətənə, bir sözlə, bəşəriyyətə xidmətlə ölçülür. Mən bu yazımda bir az da olsa, S. Fərzəliyevin alim əməyindən də danışmaq istərdim. Universitetin İxtisaslaşdırılmış Şurasının sədri olan Sahib müəllim deyir ki, mən ilklərə imza atmağı sevirəm. Kafedra tarixində ilk dəfə, üç il dalbadal konfranslar keçirmişəm. Bundan başqa, elmi tədqiqat işləri ilə bağlı ilk dəfə konfrans keçirmişəm. İlk dəfə inşaatçı magistr və diplomçuların işlərini beynəlxalq müsabiqəyə təqdim etmişəm və diplom almışıq. Eyni zamanda kafedra müdiri olduğum dövrdən başlayaraq hər ilə bir kitabım çıxır. Həmçinin ilk dəfə öz vəsaitimlə kafedramda laboratoriya (”Tikinti istehsalatının kompüter modelləşdirilməsi” laboratoriyası) açmışam...

Sonda onu da qeyd edim ki, bir sıra layihələrin müəllifi olan Sahib müəllimin layihəsi əsasında tikilib istifadəyə verilən Bakı Beynəlxalq Avtovağzalından təkcə ölkəmizin müxtəlif ərazilərinə yox, həm də dünyanın müxtəlif guşələrinə avtobuslarla sərnişinlərin daşınması amili alim əməyinin insanlara xidmət etməsinə əməli bir nümunədir. Elə bu bir nümunənin timsalında Sahib Fərzəliyev yaradıcı alim zəkası ilə doğma Bakımıza - Azərbaycanımıza və Azərbaycandan uzaqlara daşınan insan selinin üreyində vətənimizin ünvanına möhtəşəm memarlıq abidəsi ucaldıb.

Bax vətən eşqini, vətənpərvərlik amalını öz əməllərində bu cür bariz şəkildə təcəssüm etdirən bir alim-vətəndaşın kimliyini ikinci dəfə mən belə tanı(t)dım...

**Şakir ALBALI**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*





# Milli düşüncəmizdə ad sistemi

**Qədim türklərin ad sistemini nəzərdən keçirən tədqiqatçılar onları arzulanan adlar (dezirativlər), ithaf olunan adlar (memorativlər), təsvir olunan adlar (deskriptivlər) şəklində qruplaşdırmışlar. Reyhan Bəhrəm qızı Dadaşova "Azərbaycan dastanlarında şəxs adlarının folklor semantikası" (Bakı, 2018) adlı namizədlik dissertasiyasında göstərir ki, "Hər bir ad özlüyündə qısa, yığcam mətndir: onların yozumu, şifrələnməsi hər bir xalqın, konkret dil daşıyıcısının etno-mədəni gerçəkliyini öyrənmədən mümkün olmur. Şəxs adlarının funksiyasını müşahidə edərkən bildirilənlə bildirən, işarə və məna arasındakı distansiyanın müəyyənləşdirilməsi ənənəvi etnik mədəniyyətin inkişafının araşdırılması metodlarından biri ola bilər" (səh.11).**

Bir qədər sonra isə tədqiqatçı fikirlərini "Kitabi-Dədə Qorqud" dastanının üzərinə yönəldib yazır: "KDQ"-də qəhrəmanların adlarının atalarının adları ilə birgə verilməsi (Qıyan Səlcuq oğlu Dəli Dondar, Qaragünə oğlu Qarabudaq, Qəflət Qoca oğlu Şirşəmsəddin, Qaçılıq Qoca oğlu Yeynək, İlək Qoca oğlu Alp Ərən) ənənəvi model olmaqla yanaşı dastan mətnlərində Ata mifinin, Ata arxetipinin mövcudluğu ilə əlaqələndirilə bilər. Bu adlar da, adqoyma mərasiminin özü də Orxan-Yenisey kitabələrindəkinə tamamilə uyğundur. Epik mətnin substratında yer almış islami təsəvvürlər arxaik türk ad sistemini sıradan çıxara bilməmişdir.." (səh.13).

Doğrudan da, şəxs adları və onların dildə - danışıqda özlərinə necə yer almaları xalqımızın etnomədəni simasını xarakterizə edən mühüm əlamətlərdən biridir. Hər şeydən öncə, qeyd edim ki, ad göstəricisi və sıralanması tarixən Azərbaycan (türk) xalqının bir etnos, xalq, millət olaraq özünü, əslini-nəslini ata xətti ilə tanımağa və tanıtmağa dəlalət edən köklü dil (nitq) faktıdır. Dilimizdə kök salmış halallıq - halal süd əmmiş ifadəsi (və buna tərs mövqedə duran haramzadə, bic-bicənnə, vələdüzna (vələdüzzina ifadəsinin qısa deyiliş forması) birbaşa insanın atasının kimliyinin bilinməsi məsələsinə verilən ən mühüm önəmi özlüyündə işarələyir. Yəni insanın atasının övladı olaraq tanınması bizim milli düşüncəmizdə xüsusi əhəmiyyət kəsb edir. Birisinin "mən atamın oğluyam", ya "mən atamın qızıyam" deyib hikkəylə öz sözünün ağası olduğunu iddia etməsinin də psixoloji əsasında insanın halal qan daşıyıcısı olması amili dayanır. Onu da əlavə edim ki, etnik yaddaşda nəinki insanın atasının kimliyi məsələsi, hətta yeddi arxa dönənin kim olması amili də ən vacib şərtlərdən sayılıb. 7 arxa dönənini - yəni ata, atanın atası, atanın atasının atası... bu cür soykök silsiləsi zəncirinin ta 7 nəfərə qədər (7-ci babaya qədər) adlarının bilinməsi mühüm şərt sayılıb və kimin ki bu yeddi arxa dönəmindən xəbəri yoxdursa (7-ci babasının adına kimi tanımırsa), o şəxs cəmiyyətdə aşağılayıcı tərzdə "zatıqırıq" (yəni əsli-nəsli, kökü bilinməyən) hesab olunmuşdur. Eyni zamanda kənardan insana baxıb qiymət verən ictimaiyyət nümayəndələri də təqdir edici hal kimi "filankəs əsilli-köklü adamdır" deyirlər.

Başqa sözlə, insanın atası ilə tanınması ta qədimdən ad sistemində özünə silinməz iz qoymuşdur ki, bu ad göstəricisinin nizamını hətta islam düşüncəsi də pozub - dağıda bilməmişdir. Halbuki islam dinində insanın ananın adı ilə tanınması amili var. Yaxud yəhudilər ana qohumluğu ilə gedən xətti əsas götürürlər. Türklərdə isə ata gen daşıyıcısı kimi əsas götürülmüş və adlanmada da bu əlamət önə çəkilmişdir. Necə ki, elə "KDQ"-də biz bunun əyani təcəssümünü görürük: Duxa Qoca oğlu Dəli Domrul, Ulaş oğlu Qazan xan, Toğsun oğlu Rüstəm, Alp Aruzun oğlu Dəli Budaq, Dözən oğlu Alp Rüstəm, yaxud da elə Ağ Məliyin Çeşmə qızı ifadəsi kimi Ağ Məlik Çeşmə qızı. Göründüyü kimi, ata adı ilk sırada-ilk gələn ad kimi dayanmış, ardınca da oğulun (ya qızın) adı işlənmişdir ki, bu da evdə - ailədə və cəmiyyətdə ata adına olan böyük nüfuzun, ehtiramın inikası kimi düşünülməlidir.

Mən uşaq vaxtlarımdan kəndimizdə yaşlı adamları ata adı ilə çağırdıqlarını və adlandırdıqlarını çox müşahidə eləmişdim. Eləcə də yaşlı nəslin özündən sonrakı nəslin nümayəndəsini atasının adı ilə tanıdığının və adlandırdığının şahidi olmuşam. Məsələn, o vaxt kəndin yaşlı sakinlərindən olan İsmayıl kişini camaat Şükürοğlu İsmayıl kimi tanıyırdı və adını da bu şəkildə çəkirdi. Yaxud kəndimizdə Əli kişi çox idi. Onlardan birinin adını çox vaxt deməzdilər, ancaq atasının adı ilə Əvəz oğlu kimi tanıyardılar. Zərurət yarandığı halda öz adını da atasının yanına əlavə edib, Əvəzoğlu Əli kimi adlandırardılar. Çünki onun qardaşları Hümbət kişiylə Məhəmməd kişi, Novruz kişi qonşu kənddə yaşadıqlarından kəndimizin camaatı adətən Əvəzoğlu dedikdə, ilk növbədə Əli kişini nəzərdə tuturdu. Dinləyənlər də avtomatik olaraq Əli kişidən söhbət getdiyini başa düşərdi. İstisna hallarda lazım gələrdisə Əvəzoğlu ifadəsindən sonra onun oğlanlarının hansından söhbət getdiyini dəqiqləşdirmək məqsədilə müvafiq olaraq onlardan birinin adını çəkərdilər. Eləcə də Şavahatoğlu Cəbrayıl, Mamed, İsmayıl qardaşlarını da bu şəkildə adlandırardılar. Söhbətin hansı qardaşdan getdiyi bilindiyi təqdirdə isə sadəcə olaraq Şavahatoğlu kəlməsi ilə kifayətlənərdilər. Yaxud da qızından söz düşəndə Şavahat qızı Telli deyib çağırardılar. Bəzən Şavahat qızı Tellini ləqəbi ilə də "Təndir Tellisi" kimi də tanıyardılar. Bu da ondan irəli gəlirdi ki, təndir bizim dağ kəndlərində hər adamın qapısında olmurdu. Təndirdən istifadə etdiyinə görə, qapısında təndir qalayıb ətirli təndir çörəyi bişirdiyinə görə Telli xala kənddə "Təndir Tellisi" adı ilə də ad qazanmışdı. Bu da qədim türkün peşə, sənət baxımından da adamı tanıyıb adlandırmasından irəli gələn minilliklərin ənənəsidir. Ayamadan, ləqəbdən söz düşmüşkən, kəndimizdə Şirin adlı kişi bir vaxtlar Türkiyədə mühacirətdə olduğundan, camaat arasında onun özünü Mühacir Şirin kimi tanıdıqları üçün oğlanlarını da sadəcə olaraq Mühaciroğlu kimi çağırıb - hallandırırdılar. Dəqiqləşdirmə gərək olduqda Mühaciroğlu Həsən, yaxud Mühaciroğlu Məhəmməd kimi adlandırmaqla söhbətin hansı qardaşa aid olduğuna aydınlıq gətirirdilər.

Mənim atam Aydınoğlu Əlif də həmişə öz mexanizator yoldaşı olan Əhməd dayının adını Xankişioğlu kimi hallandırırdı. Vacib olduqda Xankişioğlu Əhməd deyib fikrinə dəqiqlik gətirirdi.

Milli düşüncədə kimisə atasının adı ilə yox, anasının adı ilə çağırmaq çox böyük təhqir, söyüş sayılıb. Ancaq istisna hallarda uşağı (və eləcə də həmin uşaq böyüyüb ağsaqqallıq yaşına yetdikdə də) anasının adı ilə də tanıyıb hallandırıblar ki, bu, təhqir hesab olunmayıb. Bu, müharibənin gətirdiyi bəlalardan olub. Belə ki, 1941-1945-ci illərin Böyük Vətən müharibəsinə gedən oğulların dul qalan arvadlarının yanında böyüyən uşaqlarını bəzən anasının adı ilə tanıyıb - çağırıblar. Bu, ondan irəli gəlib ki, müharibədən qayıtmayan atanı yeni doğulan nəsil görməyib-tanımadığından, uşağın atasını yox, anasını tanıdıqlarından, anasının adı ilə çağırıb-buyurublar və mexaniki olaraq bu, artıq dildə vərdişə çevrilib. Beləcə, ana himayəsində atasız böyüyən yetim uşaq müharibənin doğurduğu acı fəlakətin nəticəsində anasının adı ilə tanınıb. Göründüyü kimi, stereotiplərin dağılması, ənənənin pozulması hər bir halda böyük bir faciədən soraq verir. Ana adı ilə çağırılıb tanınmaq el arasında təhqir sayıldığı halda, müharibənin dəhşətləri bu ənənənin üstündən xətt çəkir və uşaq ata adı ilə yox, anasının adı ilə tanınıb çağırılır. Əlbəttə, bu kimi hallar istisnadır və Allah belə bəlaları xalqımızın başı üstündən uzaq eləsin ki, bir daha bu cür faciələr yaşamayaq.

Bu məqamda milli düşüncə üçün xarakterik olan bir məsələyə də aydınlıq gətirmək istərdim. Halbuki bu məsələ nədənsə unudulub. Biz ruslardan gələn ənənəni qəbul edib milli təfəkkürdəki adlandırma sırasını pozuruq. Halbuki yuxarıda "Kitabi-Dədə Qorqud" abidəsindən də, eləcə də öz kəndimizin yaşlı sakinlərinin dilində daşlaşıb qalmış olan adlandırma qəlibindən də aydın gördük ki, adlandırma sistemində lap əvvəldə ata adı gəlir. Hətta ata adı o qədər vacib və önəmli əhəmiyyət daşımışdır ki, bir qəzəli ilə adı tarixə düşmüş olan şairimizin də adı atasının adı ilə Həsənoğlu kimi ədəbi aləmdə əbədiləşib şöhrət tapmışdır. Göründüyü kimi, şairin öz adı unudulmuş, atasının adı tarixin yaddaşına düşmüşdür.

Məhz bu ardıcıllıqdan götürdükdə, bizdə adlar sistemi bu gün ruslardan götürüb əxz elədiyimiz və ənənə halına saldığımız kimi, soyad, ad və ata adı kimi yazılış və səsləndirmə milli təfəkkür tərzimiz üçün yad hesab olunmalıdır: Məsələn, Albalıyev Şakir Əlif oğlu sistemində yazılış milli ənənədən kənara çıxmadır. Milli düşüncə ata adını əvvələ gətirməyi tələb edir: - Əlifoğlu Şakir Albalıyev.

Əvvəldə ata adı gəlməli, ardınca şəxsin öz adı yazılmalıdır, ən sonda isə soyad bildirən ad göstərilməlidir. Bu cür yazılış-bu ardıcıllıq hansı prinsipə əsaslanır deyə sual edə bilərsiniz. Əvvəla, "KDQ"-dən gəlmə prinsip kimi, ikincisi, yuxarıda misallar gətirdiyim formada canlı xalq dilində də özünü qoruyub saxlayan eyni bir prinsip kimi.

Bu modeldə ata adının əvvəldə gəlməsi həm atanın böyük kimi adının əvvəldə gəlməsi, həm də ataya qoyulan hörmətin ifadəsi kimi düşünülməlidir. Bəs familya göstəricisi olan babanın, ya ulu babanın adının axırda gəlməsini necə izah etmək olar? Böyüklüyə qalanda baba atadan da böyükdür axı deyə sual doğa bilər. Bu məsələdə prinsip artıq başqa cürdür. Burada məntiqi düşüncə öz prinsipini yeridir. Belə ki, bir şəxsin kimliyini bilmək üçün onun el arasında ata adı ilə tanınması ilkin şərt kimi götürülür. Yəni ata adı ilə təqdim edilən uşağın adı ona dəlalət edir ki, adı çəkilən şəxs atanın hansı övladıdır. Bununla da demək olar ki, təqdimat tamam olur. Yox, əgər məhlədə, eldə-obada eyni adla (eyni ata adı ilə) tanınan ikinci, üçüncü şəxs (adaş) varsa, o zaman familiyanın - hansı nəslin, soyun, tayfanın daşıyıcısı olduğunu deməyə ehtiyac yaranır. Bu səbəbdən də familiyanı söyləməyə sonda ehtiyac yarandığı təqdirdə, axırda soyad bildirən baba adı ifadə olunur. Başqa sözlə, ata adından və addan sonra gələn familiya-soyad əslində əlavə - izahedici funksiya daşıdığına görə, sonda ən axırda bura əlavə olunur. Bir sözlə, soyadın sonda gəlməsi məntiq prinsipinə əsaslanır. Yəni əgər Əlifoğlu Şakir deyildikdə, hansı Əlifin oğlu sualı yaranarsa, onda suala cavab olaraq onun mənsub olduğu tayfanın adını bildirən soyadı işlətməyə ehtiyac var.

"Şəxs adının ictimai işarə olması problemi hələ də tədqiqatçıların diqqətini cəlb etməmişdir". (V.A.Nikonov. İmya i obşestvo. Moskva, Nauka. 1974. S.272. s.29). Bəli, V.A.Nikonovun ictimai işarə kimi dəyərləndirdiyi şəxs adları həm də cəmiyyət üzvü olan ayrı-ayrı fərdləri kimliyi ilə bərabər sosial mövqeyinə görə də ayırıb fərqləndirməyə xidmət edir.

**ƏLİFOĞLU Şakir ALBALI**

# Dilimizin möhürü vurulmuş adlar

**Ahəng qanununa tabeolma prinsipi dilimizin özəlliklərindən ən başlıcasıdır. Bu amil öz üstünlüyünü o dərəcədə qoruyub saxlayır ki, hətta əcnəbi dillərdən gəlmə xüsusi adlara da əsaslı təsir göstərmiş olur. Məsələn, Fatma (Fatimə), Məhəmməd - qısaldılmış şəkildə Məmməd (Muhəmməd), Əli və başqa adlar da dilimizin ahəng qanununa o qədər uyğunlaşıb ki, o adların alınma olduğunun çox vaxt fərqinə vara bilmirik.**

Çox təəssüf ki, indi yuxarıdakı adları təzədən sanki zamanın çarxını geriyə fırladıb, ərəbcələşdirməyə meyl yaranıb. Guya savadlılığın əlaməti kimi həmin adları orijinala uyğunlaşdırırıq. Fatmanı Fatimə, Məhəmmədi (Məmmədi) Muhəmməd kimi yazmağa və tələffüz etməyə çalışırıq. Halbuki yüz illərdir ki, bu adlar üzərində yaxşı mənada Azərbaycan dili öz hegemonluğunu yeridib və özünün dil qanunları çərçivəsinə salaraq necə deyərlər, milliləşdirib. Hətta o dərəcəyədək ki, bu adlar folklor örnəklərimizdə danışıq dilimizin şirinliyi ilə birgə özünə yer alıb. Məsələn,

*Çağır gəlsin Fatmanı,*
*Qara qaşı çatmanı.*
*Baxaq kimdən öyrənib*
*Belə qaş-göz atmanı*

şəklində bayatı - əzizləmə nümunəsində Fatma formasında öyülən-nazlanan adda nə qədər böyük şirinlik duyulur. Yaxud:

*Allahın dostu Məhəmməd,*
*Dinin irasdı Məhəmməd.*
*Ölkəmiz nurunan doldu,*
*Bir qədəm basdı Məhəmməd*

şəklində analarımızın layla-beşik başında balalarına layla-axşama demələri nə qədər xoş ovqat aşılayır. Məhəmməd adında üç dəfə dalbadal incə ə səsinin incə, zərif səslənişi oxşamadakı ritmikliyi, melodik həzinliyi artırır. Unutmayaq ki, müstəqilliyin əsas göstəricilərindən biri dil azadlığıdır və Azərbaycan dili ən qədim türk dili olmaqla o qədimliyin orijinallığını da özündə fonetik prinsiplər etibarilə ən etibarlı şəkildə qoruyub yaşadır. Dil bir mədəniyyət hadisəsidir, mədəni ünsiyyət aktıdır. Multikulturallığın bir təzahürü də dil faktıdır. Belə ki, dil bir mədəni - tarixi dəyər kimi mənəvi inciləri bir estafet olaraq özündə daşımaqla onu gələcəyə ötürüb yaşadır və bu yolla mədəni dəyərlər müxtəlif xalqlara inteqrasiya oluna bilər. "(Qədim) türkün adı həmişə onun cəmiyyətdəki vəziyyəti ilə əlaqədardır. Kiçik vaxtı ayaması,yeniyetməlikdə - ad-san qazanır, kasıb olanda - titulu olur, əgər xandırsa, onda titul sosial pillə sistemində dəyişirdi" (Qumilyov L.N. "Drevnie tyurki", Moskva, Nauka, 1967).

Ən qədim türk dili olmaqla Azərbaycan dili öz üstün keyfiyyətlərini həmişə qoruyub saxlayıb və göründüyü kimi, alınma şəxs adlarını belə öz ahəng qanununa salmaqla onları tarixən sabitləşdirib, özəl adlarımız cərgəsinə qatıb. Bu gün nəhəng folklorumuzun yaradıcısı və daşıyıcısı olan canlı xalq kütləsinin sabit qəlibə saldığı əcnəbi şəxs adlarını - xüsusi isimləri (Fatma, Məhəmməd və s.) "savadlılığımıza salıb" guya orijinal şəklini yazılışda və tələffüzdə bərpa etməyə gərək yoxdur. Çünki bu adlar danışıq dilimizin tələbinə əsasən artıq çoxdan milliləşiblər.

**ƏLİFOĞLU**

# Gəyənin səsi bizi çağırır

**İnşaatçı-mühəndis Mərkəz Çərkəz oğlu Paşayev avtobioqrafik məzmunlu "Gəyənin səsi" ("Təknur",2019) romanı ilə oxucuların görüşünə gəlib. Belə ki, əsərin mərkəzində dayanan rəis Mərdan Paşalı obrazı elə müəllifin - Mərkəz müəllimin özünün həyatdakı prototipidir. Mən Mərkəz müəllimi yaxşı tanıdığım üçün-hansı işin, peşənin sahibi olduğunu bildiyim üçün qəti olaraq bu qənaətdəyəm. Bundan başqa, romanda adları keçən Əmirxan surəti müəllifin babası Əmir Paşa oğlunun, Xatun xanım surəti nənəsi Xasa Seyidalı qızının, Cavanşir surəti atası Çərkəz Əmir oğlunun, Ceyran obrazı isə müəllifin anası Səlbinaz Alhüseyn qızının həyatdakı prototipləridir.**

Kitabın adında ifadəsini tapan Gəyən sözü də Cəbrayıl rayonunda nəhayətsiz geniş bir əraziyə el tərəfindən verilmiş bir düzün adıdır. Qubadlıda Yazı düzü, Beyləqanda Mil düzü, Aran bölgəsində Muğan düzü, Füzulidə Haramı düzü (hətta Cocuq Mərcanlıda Şamlıq ifadəsi var ki, otlanacaq, düz, örüş yeri mənasında işlənir) kimi adlarla tanınan düzəngahlar, ucsuz-bucaqsız çöllər vardır. Mərkəz müəllim romanda göstərir ki, " Ziyarət dağının, Tumas Atanın ətəklərindən başlayaraq Araz çayına dirənənədək uzanan Gəyən düzünün qərb əraziləri Həkəri çayı ilə həmsərhəddir" (səh.7).

Qeyd edim ki, müəllif özü də Gəyən düzü deyilən ərazidə salınmış Qovşudlu kəndindəndir. Bu amili də əsərində xüsusi olaraq diqqətə çəkib: "Qədim türk millətinin Qıpcaq çöllərində məskunlaşıb köçəri həyat tərzi keçirən tayfalarının qollarından biri olan Qovşudlu elatı ta qədimdən Gəyən düzündə məskunlaşıblar. Qovsudlu elatı əsasən heyvandarlıqla məşğul olublar. Yazda, payızda Gəyən düzündə olublar, qışda nisbətən isti bölgələrdə - Mil, Muğam düzlərində qışlayıb erkən yazdan başlayaraq ta payızın əvvəlinə kimi qədim yurd yerləri - qərbi Azərbaycandakı yaylaqlarında yaylayıblar.

Gəyən düzü böyük əraziyə malikdir: Şimaldan Tumas ata dağının ətəklərindən başlayaraq Qərb sərhədi Həkəri çayı boyunca Araza qədər uzanır. Şərqdən Cəbrayıl çaylağına söykənərək Araz çayına dirənənə qədər, cənubdan isə Araz çayı ilə həmsərhəd olan əraziləri əhatə edir. Gəyən düzünün ərazisindən daimi sulu çay axmadığından bu ərazilərdə yaşayanlar və elat camaatı susuzluqdan daimi əziyyət çəkiblər.

Qovsudlu elatı da bu ərazilərin daimi yaşayanları olduğundan vəziyyətdən çıxış yolu axtarırlar. XVIII əsrin ortalarında Gəyən düzünün İnçə çay çaylağına söykənən və "Burun" deyilən ərazidə yeraltı su mənbələrinin - sızqa bulaqların olduğunu aşkarlayırlar, bu ərazini özlərinə daimi yaşayış məskəni edirlər, kənd salmağa başlayırlar.

İmkanlı elat ağsaqqalları İrana səfər edirlər, kankanlar dəvət edib kəhriz qazdırmağa başlayırlar. Gərgin əməyin nəticəsində böyük su ehtiyatı olan ilk kəhriz istifadəyə verilir. Şadlıq içində olan camaat çoxlu qurbanlar kəsir, bayram edirlər. Kəhrizin suyunun hədsiz bol olduğunu görən kənd camaatı kəhrizə "Nəhəng" adı verirlər. Sonralar zaman keçdikcə Nəhəng sözü təhrifə uğrayıb, həmin kəhrizə Nəhət adı da deyiblər. O vaxtdan etibarən Qovsudlu elatı




həmin ərazidə ilkin olaraq yeraltı qazmalardan olan daimi yaşayış yeri - kənd salıblar - Qovsudlu kəndini.

Qovsudlu kəndində sayılıb-seçilən bir neçə tayfa olub. Xatun xanımın qaynatası Paşa da bu tayfalar içində xüsusi yeri olan, təmkinli, uzaqgörən ağsaqqalları ilə seçilən Böyük Mirimli tayfasının orta nəslinə mənsub idi. Böyük vardövlət sahibi olub, bir neçə qoyunquzu sürüsü, xeyli mal-qarası, at ilxısı, karvanbasar sayda dəvələri var idi. Paşa kişi həm də böyük səxavət sahibi olub, evsizlərə, imkansızlara, ehtiyacı olanlara daimi əl tutub. At həvəskarı olduğundan at ilxısına özü nəzarət edərmiş, ilxıdakı atların hər birinin şahə qalxmasına, ayaq döyməsinə, kişnərtisinə diqqət yetirərmiş, kəndin gün çıxar qənşərindəki böyük düzənlikdə at cıdırı olub. Hər gün tezdən özü mindiyi kəhər atlarla, xüsusilə sevimli qara kəhəri ilə o cıdırda qaçış edərmiş, müxtəlif hərəkətlər göstərərmiş. Qulanların, dayların yetişən vaxtında onların minməyə öyrədilməsində ilxıçılar çətinliklə üzləşəndə Paşa kişi onların köməyinə çatarmış. İlxıçıların minməyə cürət edə bilmədiyi qulanları, dayları nəzarətə götürüb bellərinə atdanarmış, onları özü əhliləşdirərmiş, bu sahədə böyük səriştə sahibi imiş".

Əsərdən gətirdiyimiz bu parça da bir daha onu göstərir ki, Mərkəz Paşayev bu kitabında özünün doğulub yaşadığı, böyüyüb araya-ərsəyə yetdiyi və işləmiş olduğu Gəyən torpağını, Gəyən düzünü təsvirə gətirməklə bir ziyalılıq missiyası nümayiş etdirib, öz eli-obası üçün bir ədəbi abidə yaratmağı qarşısına məqsəd qoymuşdur. Bunun üçün də o, hər şeydən əvvəl, özünün ömründən keçənləri və yaddaşına köçənləri ümumiləşdirmiş, özündən əvvəlkilərinin, yəni sələflərinin xatirəsi işığında bu günkü və gələcək nəslə bir ədəbi məktub - sənədli roman ünvanlamışdır. Bu kitab müəllifin həm də öz camaatı qarşısında, eli-obası yolunda bir övladlıq hesabatıdır ki, "mən bu dünyada nələr eşidib-nələr gördüm" sualının qarşılığını - cavabını vermişdir. Ona görə ki, M.Paşayev yaddaşında iz buraxan hər bir anı həssaslıqla kitabın səhifələrində əks etdirmişdir. Belə ki, "Burun" deyilən ərazidən tutmuş Nəhət kəhrizinə kimi toponimik səciyyə daşıyan bütün yer-yurd adlarını, yaxud Paşa kişinin Böyük Mirimli tayfasına mənsub olmasını və s. əsərdə məxsusi şəkildə qeyd etməsi müəllifin qan-gen yaddaşını ədəbi hadisə kimi gələcək nəsillərin hafizəsinə əbədi yazdırmaq istəyinin göstəricisidir. Ona görə də Mərkəz müəllim əsərində xalq danışıq dilinin canlı koloritini qoruyub saxlayır, xalq həyatı ilə ilgili olan məişət lövhələrini təsvirdə canlandırır. Bu nöqteyi-nəzərdən düşündükdə "Gəyənin səsi" romanı həm də tədqiqatçılarımıza folklor-etnoqrafik yönlü detallarla bağlı gərəkli məlumatlar verir.

"Xatun xanım əl-ayaq etməyə başladı, çuvaldan un gətirdi, xəmir elədi, xəmirin üstünü örtüb çır-çırpı yığmağa yollandı, xeyli təzək topladı, qışdan qalma qoyun kərməsindən bir neçəsini gətirdi, sacı qurşdırdı, altına od vurdu. Yuxa çörəyi salmağa başladı. Gün batmağa xeyli qalmışdı, iyirmi bükümə qədər yuxa çörəyi saldı. Sonra üç ayaqlı çatmanı gətirib dəyənin qabağında quraşdırdı. Son həftədə yığıb-topladığı qatıqları çatıdan asılan nehrəyə boşaldıb çalxalamağa başladı. Mərdan da nənəsinin yanını kəsdirib nehrənin yırğalanmasına tamaşa edərək əlini nənəsinin əlinin üstünə qoyaraq nehrənin çalxalanmasına öz aləmində kömək etməyə başladı. Gün təpələr arxasına keçəndə, Xatun xanım nehrəni açdı, xeyli nehrə yağı yığdı. Nehrənin ayranını dəyənin həndəvərindəki toyuq -cücənin qablarına tökdü.

Xatun xanım axşamdan bəzi bar-barxananı fərməşlərə qablaşdırmağa başladı, əl-ayaqda işlədilənləri və yol azuqələrini xurcunun gözlərinə yığıb çadırın çubuğuna şöykədi. Gündüz çox əlləşdiyindən yorğun idi, mürgü onu tutdu.

Səhər obaşdan ayıldı Xatun. Nəvəsi Mərdan mışıl-mışıl yatırdı, ehmalca donunu başına atıb belini bağladı, alaçıqdan bayıra çıxdı. Arxac boş idi, çobanlar və Qədir qoyun-quzu sürülərini gecə yaylıma aparmışdılar. Xatun xanım küzdəki təzəcə doğulmuş quzulara baş çəkdi, körpə buzovları analarının altına buraxdı, toyuq-çücəyə yem atdı, çadıra qayıdıb samovara od saldı.

Gün xeyli qalxmışdı, səma tam aydın idi, sürünü yaylıma aparan cobanlar örüşdən qayıtmışdılar. Səhər-səhər çay içib çörək yedilər, düşərgəni tam nəzərdən keçirdilər, köçü tərpətməyə hazırlıq işlərini yoxladılar.

- Ay ana, sən yır-yığış işlərini tam görmüsənmi? -dilləndi Qədir.

- Hə, ay bala, hər şey öz qaydasındadır, fərməşləri, ağır yükləri dəvələrə yükləməyə kömək lazımdır, yerdə qalan xırda-paraları özüm qaydasına qoyacağam.

Gün əyiləndə Gəyəndəki yurd yerlərindən tərpəndilər. Xatun xanım kəhər ata minib nəvəsi Mərdanı da qucağına aldı. Bir müddət obanın kiçik dəvə karvanının yedəyindən yapışdı, sarvanlıq elədi. Maya dəvənin köşəyi dinclik bilmirdi, oynaqlayırdı, ora-bura qaçırdı. Köşəyin bu hərəkəti Mərdanın diqqətindən qaçmırdı:

- Ay nənə, bu balaca dəvə niyə ora-bura çox qaçır?

- Mərdan, o balaca dediyin dəvəyə köşək deyirlər, bax o köşək bizim ev yükümüzü yığdığımız maya dəvənin - yəni ana dəvənin balasıdır."

Göründüyü kimi, bu parçada bir elat köçü, tərəkəmə əhlinin həyat tərzi, məişəti maraqlı bir tərzdə nəql olunur, lazımi informasiyalar verilir.

Beləcə, "Gəyənin səsi" Gəyən əhlinin ədəbi müstəviyə gətirilmiş səsi-sorağı kimi Mərkəz Paşayevin qələmindən təqdim olunur. Gəlin Gəyənin səsini dinləyək, eşitdiyimiz səsin hənirinə-istisinə yığışaq, əzəli-əbədi torpaqlarımız olan Gəyən çöllərində firavan yaşayışımızı davam etdirək. Elə Mərkəz müəllimin də "Gəyənin səsi" bizlərə bu çağırışı edir!..

**ŞAKİR**



Ənvər Şıxlar

## QOCALANDA

Fikir, xəyal da çaşır,
Alınlar da qırışır.
Qırışlar selovlaşır,
Üzlər də qacalanda.

Hava duman bürünür,
Ona sarı sürünür.
Tək də qoşa görünür
Gözlər da qocalanda.

Çox vaxt yaddaş da çaşır,
Fikirlər də qarışır.
Dil ucunda dolaşır
Sözlər də qocalanda

Taqətdən, heydən düşür,
Bir-birinə ilişir.
Dada çəlik yetişir,
Dizlər də qocalanda

Ənvər, addım atırıq,
Son mənzilə çatırıq.
Bu dünyanı "atırıq"
Bizlər də qocalanda.

## GÖRDÜK

Qar yağdı biçilmiş zəminin üstə,
Yayın ortasında qışı da gördük.
Olduq yurd həsrətli sağalmaz xəstə,
Ağlını itirmiş başı da gördük.

Gərginlik əlində canı da üzdük,
Dərdə sinə gəzib, birtəhər dözdük.
Bu illər ərzində çox ünvan gəzdik,
Yamanı da gördük, xoşu da gördük.

Şirinlik töküldü yaltaq dilindən,
hər yerdə yarıdı bu əməlindən.
Hörmət görmüş ermənilər əlindən
başımıza düşən daşı da gördük.

Dərd, kədər qəlblərdən sevenci sildi,
Taqət qocalığa qənim kəsildi!
Yavaş-yavaş hərarəti əksildi,
Sırsıra bağlamış qaşı da gördük.

Ənvər Şıxlar, nə çəkirsən, duyan yox,
Bağda, parkda səni adam sayan yox!
Bir kəlməni söz yerinə qoyan yox,
Heç nəyə yaramaz yaşı da gördük.

# Taxıl sahələrinin 75 faizində biçin yekunlaşıb

**Bu il Cəbrayıl rayonunda 1550 hektar buğda, 700 hektar arpa sahəsi olmaqla ümumilikdə 2250 hektar sahədə taxıl əkini aparılmışdır.**



May ayının sonunda taxıl sahələrində biçinə başlanmış, bu günədək 1708 hektar ərazidə taxıl biçini aparılmışdır. Biçini başa çatdırılmış sahələrdən 668 hektarı arpa, 1040 hektarı isə buğda sahəsidir. Biçilmiş sahələrdən ümumilikdə 5836 ton taxıl istehsal edilmiş, hər hektara orta məhsuldarlıq 34.16 sentner olmuşdur.

Rayon üzrə taxıl biçinə 9 kombayn cəlb olunub. Bunlardan 2-si "Aqrolizinq" ASC-nin balansında olan kombayn, 5-i fiziki şəxsə, 2-si isə "Aqrolizinq" ASC-nin biçində iştirak edən dislokasiya olunmuş kombayndır.

"Aqrolizinq" ASC-nin kombaynları ilə 760 hektar, fiziki şəxslərdə olan kombaynlarla isə 948 hektar sahə biçilmişdir.

Rayonda taxıl biçini davam etdirilir.

**"XUDAFƏRİN"**

Baş redaktor:
Şakir Əlif oğlu
ALBALIYEV

Qəzet Ədliyyə Nazirliyində qeydə alınıb.
H/h:55233080000
kod: 200888
VÖEN: 9900003611
M/h: 013010001031
Kapitalbankın Cəbrayıl filialı
VÖEN: 8200035441
Ünvan: AZ 1073, Bakı şəh.,
Mətbuat prospekti, 529-cu məhəllə
"Azərbaycan" nəşriyyatı.
Telefon: (051) 441-15-82

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

Materiallardakı faktların doğruluğuna müəlliflər cavabdehdir.

Əlyazmalar geri qaytarılmır.

Qəzet "Açıq Səma" qəzetinin kompüter mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında çap edilib.
albaliyevshakir@gmail.com
albaliyevshakir@rambler.ru
Sifariş №: 2000
Tiraj: 1500